# Nə olur?

Nəfsi paklaşdırmasan, sabit iman olmasan,
Şiə, sünnü də olsan, ali insan olmasan,
Saleh əməl sahibi, Əhli Quran olmasan,
Alim olsan nə olur, cahil olsan nə olur?

Haram yeyib, şər deyib qeybət eşitdinsə sən,
Saleh əməl əhlini suçla puç etdinsə sən,
Tabe olub şeytana, zülmətə getdinsə sən.
Varlı olsan nə olur, sail olsan nə olur?

Düz yola, haqq uğruna hidayətin olmasa,
Mərifətin nurundan qəlb evinə dolmasa,
İnsanlar insan kimi səndə fayda bulmasa
Dindar olsan nə olur, qafil olsan nə olur?

Qarnın oruclu ikən, ruhun olsa xətakar,
Dilin zikirdə ikən, əlin-qolun tamahkar,
Aşkarda məsum olsan, gizlindəsə günahkar
Məmur olsan nə olur, məsul olsan nə olur?

Haqq-ədalət yandaşı, saf ölkə vətəndaşı,
Əhli-beyt aşiqi, peyğəmbər tərəfdaşı,
Haqqı tanı, haqqı sev, ol haqlının qardaşı,
Ərəb ya Əcəm kimi təmsil olsan nə olur?

Minnət qarışdırmadan olsa pak səxavətin,
Xalis niyyətə koşsun müqəddəs itaətin,
Gəlki riyaya, ücbə bulaşsa ibadətin,
Habil olsan nə olur, Qabil olsan nə olur?

Namaz,oruc, zəkatın, əməlin yoxsa sənin
Savab yox insan oğlu, günahın çoxsa sənin,
Bəd əxlaqlı olmağın qəlb evin yıxsa sənin,
Cavan olsan nə olur, ahıl olsan nə olur?

Haqqa girib, zülm edib, batil olarsansa sən,
Haram mala dövlətə nail olarsansa sən,
Kərbəlada, Məşəddə on il olarsansa sən,
Həccə gedib Kəbəyə daxil olsan nə olur?

İ. Ramin

# QƏDİR-XUM
# GÜNÜNÜN MESAJLARI

***Hicrətin 10-cu ilində Peyğəmbərimiz (s) sonuncu həcc ziyarətindən - "Həccül-vida"dan qayıdarkən, Zucan adlı yerə yetişdikdə, ona yeni bir vəhy nazil oldu. Allah Təala Peyğəmbərə (s) buyururdu: "Ey Rəsul! Sənə nazil olanları insanlara çatdır, əgər bu işi görməsən, öz risalətini (peyğəmbərlik missiyasını) tamamlamamış olursan...". (Maidə" surəsi, 67)***



Bundan sonra Peyğəmbərimiz (s) Cühfə adlı yerdə yolayrıcına çatanda, dayanmaq barədə göstəriş verdi. Bu məkana Qədir-Xum deyirdilər. Sonra yüz mindən artıq zəvvarın qarşısında, dəvə palanlarından düzəldilmiş minbərin üstünə çıxaraq, müsəlmanlara dedi: "Ey insanlar! Mən tezliklə sizin aranızdan gedəcəyəm, mənim öhdəmdə də məsuliyyət var, sizin öhdənizdə də. Siz mənə necə şəhadət verirsiniz?". Hamı uca səslə dedi: "Biz şəhadət veririk ki, sən peyğəmbərlik vəzifəni yerinə yetirmisən, xeyirxahlıq şərtlərinə əsaslanaraq, bizim hidayət olmağımız üçün son dərəcə əzmlə çalışmısan, Allah bunun əvəzində sənə savab mükafatı versin!". Sonra Peyğəmbərimiz (s) buyurdu: "Siz Allahın birliyinə, mənim peyğəmbərliyimə, Qiyamət gününün haqq olmasına və həmin gün ölənlərin imtahan vermək üçün yenidən dirilməsinə inanırsınızmı?". Hamı cavabında dedi: "Bəli, inanırıq!". Rəsuli-Əkrəm (s) dedi: "İlahi, şahid ol!" Sonra o, Həzrət Əlinin (ə) əlindən tutub qaldırdı ki, hamı onu görsün, orada olanlar hamısı onu tanısın. Həzrət Peyğəmbər (s) buyurdu: "Möminlərin özlərinə nisbətdə ən üstün olan şəxs kimdir?" - müsəlmanlar cavab verdi: "Allah və Onun peyğəmbəri daha yaxşı bilir!" Həzrət Peyğəmbər (s) buyurdu: "Allah Təbarəkə və Təala - mənim mövlam və rəhbərimdir, mən isə iman gətirənlərin rəhbəriyəm və onların işlərində özlərindən daha məsuliyyətliyəm!" Sonra buyurdu: "Mən hər kimin rəhbəriyəmsə, bu Əli (ə) onun rəhbəridir". Bu sözləri dörd dəfə təkrar etdi və sonra dua etdi: "İlahi! Əli (ə) ilə dostluq edənlərlə dostluq et, düşmənləri ilə düşmən ol, onu sevənləri sev, ona qarşı qəzəbli olanlara Sən də qəzəbli ol, ona kömək edənlərə kömək et, ona kömək etməkdən boyun qaçıranlara kömək etmə, onu haqdan ayırma və haqqı həmişə onunla birlikdə et!". Sonra əlavə etdi: "Burada hazır olanların vəzifəsi, bu xəbəri burada olmayanlara çatdırmaqdır".

Həzrət Peyğəmbərin (s) xütbəsi sona çatandan sonra camaat dağılmamış, Qurani-Kərimin ayəsi nazil oldu: "Bu gün Mən sizin üçün dinimi kamil, höccətimi isə tamam etdim. Sizin üçün din olaraq İslamı bəyəndim...". ("Maidə" surəsi, 3)

Bundan sonra Həzrət Peyğəmbər (s) buyurdu: "Allah böyükdür, Allah bizim üçün öz dinini təkmilləşdirdi və nemətlərini bizim üçün tamam etdi. Mənim peyğəmbərliyimi və Əlinin (ə) məndən sonra canişinim olmasını bəyəndi".

Bu zaman sevinc səsləri ucaldı. Bütün səhabələr Həzrət Əliyə (ə) yaxınlaşaraq, dedilər: "Ya Əli, sən bizim və bütün iman gətirənlərin rəhbəri oldun! Səni təbrik edirik!".

Nazil olunan ayədən görünür ki, Peyğəmbərin (s) ömrünün sonunda, mühüm bir məsələ qalmışdı ki, o məsələ həll olunmasa idi, risalət tamamlanmayırdı. Həzrət Peyğəmbərin (s) 23 illik zəhməti ilə bərabər olan və müsəlmanların bilməsi zəruri olan bu məsələ, onların bildikləri mətləbləri təkrarlamaq deyil, Peyğəmbərdən (s) sonra öz müqəddəratlarının kimə tapşırılması məsələsi idi. Təbii ki, bu məsuliyyət də insanların ən fəzilətlisinə və ən üstününə tapşırılmalı idi ki, belə bir şərəfli işin öhdəsindən gələ bilsin.

### Qədir-Xum bayramı Həzrət Fatimənin (s.ə) mübarək dilindən

Bir gün Həzrəti Fatimə (s.ə) şəhid Həmzənin (ə) qəbri üstündə dayanmışdı və əzadarlıq edirdi. Məhmud ibni Ləbid bu fürsəti qənimət bilib, Xanımdan (s.ə) soruşur: "Ey Allahın Peyğəmbərinin (s) qızı, Əli ibn Əbutalibin (ə) imamətinə aid Peyğəmbərdən (s) eşitdiklərin yadındadırmı?" Xanım (s.ə) buyurur: "Çox qəribədir! Böyük Qədir-Xum bayramını unutmusan? Allahı şahid tuturam ki, özüm eşitmişəm, o böyük insan buyurub: "Əli (ə) - sizin aranızda




qərar verdiyim ən yaxşı canişindir. Əli (ə) - İmam və məndən sonra xəlifədir. İki övladı Həsən (ə) və Hüseyn (ə) və Hüseyndən (ə) olacaq doqquz övladı - pak İmamlardırlar. Əgər onlara itaət etsəniz, sizi hidayət edəcəklər. Əgər onlarla müxalifətlik etsəniz, Qiyamət gününə qədər sizin aranızda təfriqə hakim olacaqdır"".

### Qədir-Xum bayramı İmam Əlinin (ə) mübarək dilindən

Səlim ibni Qeys Həlali nəql edir: "Osmanın xəlifə olduğu dövrdə Nəbi (s) məscidində əyləşmişdim. Məsciddə bir toplum söhbət edirdi. Əli ibn Əbutalib (ə) ayağa qalxdı və İslam dininə etdiyi keçmiş xidmətlərini yada saldı və hamı da onu təsdiqlədi. O, Qədir-Xum haqqında belə buyurdu: "İnsanlar Peyğəmbərdən (s) vilayət haqqında soruşdular. Bu zaman Allah Peyğəmbərə (s) əmr etdi ki, özündən sonrakı xəlifəni və canişini elan etsin. Necə ki, namaz, oruc, zəkat... haqqındakı xırdalıqları bəyan edirdi. Peyğəmbər (s) Qədir-Xumda məni belə tanıtdı: "Ey insanlar! Bilirsinizmi ki, Allah mənim Vəlim və Rəhbərimdir? Mən də siz möminlərin vəlisi və rəhbəriyəm? Mən sizin canlarınıza sizdən də layiqliyəm". Hamı cavab verdi: "Belədir, ey Allahın Peyğəmbəri!" Buyurdu: "Əli (ə), ayağa qalx!" Mən ayağa qalxdım və bu zaman buyurdu: "O kəsin ki, vəlisi və rəhbəri mənəm, Əli ibn Əbutalibin (ə) onun üzərində vilayəti vardır. Allahım, hər kim Əlini (ə) sevər, Sən də onu sev. Hər kim Əlini (ə) düşmən bilər, Sən də onu düşmən bil"".

### İmam Əlinin (ə) Qədir-Xum xütbəsi

Əli ibn Əbutalibin (ə) zahiri xilafəti dövrü Qədir-Xum bayramına təsadüf etmişdi. Cümə günü idi və o Həzrət (ə) insanların qarşısında xütbə dedi. Hüseyn ibni Əli (ə) nəql edir: "O, əvvəl Haqq Təalaya həmd deyir. Rübubi sifətlərini sayır. Hakimiyyəti Ondan bilir. Nemətlərini diqqət mərkəzinə gətirir və insanlara xitab edərək buyurur: "Allah Təala bu gün iki bayramı bir zamanda sizin üçün qərar vermişdir. Bu iki bayramın hər birinin fəlsəfəsi o birisinə təkamül bəxş edir. Hər birinin vasitəsilə o birisinə hidayət təsir qoyur. Allahın yeganəliyində tövhid və imana etiraf, Peyğəmbərin (s) nübuvvəti olmadan qəbul olmaz. Peyğəmbərin (s) dini və şəriəti isə Allahın vilayət üçün əmr etdiyi kəsin vilayətini qəbul etmədən qəbul olmaz. Bütün bu işlər vilayət əhlinə təvəssül etmədən sahmana düşməz. Allah Qədir-Xum günündə seçilmişləri üçün iradə etdiyini Peyğəmbərə (s) nazil etdi. Ona əmr etdi ki, vilayət və vəsiliyi elan etsin. Kafirlərdən və münafiqlərdən bu fürsəti alsın. Qədir-Xum gününün məqamı böyükdür. O gündə hüccəti hamıya tamam oldu. Bu gün təkamül günü və əhdə vəfa günüdür. Bu gün küfr və nifaq müqavilələrinin üzərindən pərdələrin götürülməsi günüdür. İslamın əsl həqiqətinin aşkar olduğu gündür. Şeytanın xarlıq və zillət günüdür. Bürhan və dəlil günüdür. Allah bəndələrinin imtahan günüdür. Qəlblərdə gizlənən kinin aşkar olduğu gündür.

Allahın rəhməti olsun sizə, ey müsəlmanlar! Bu cəmdən ayrılandan sonra bayram keçirin. Ev əhlinə və qohumlarınıza neməti genişləndirin, yaxşılıq edin! Din qardaşlarınıza gücünüz çatdığı qədər yaxşılıq edin. Allahın sizə verdiyi nemətlərə görə şükür edin. Bir-birinizin yanında toplaşın ki, Allah da sizin toplumunuzu daha da genişləndirsin. Bir-birinizə yaxşılıq edin ki, Allah da sizə daha çox ülfət və mehribanlıq etsin. Bir-birinizi təbrik edin. Gülərüzlə bir-birinizi qucaqlayın. Sizdən kömək gözləyən ehtiyaclı insanların ziyarətinə gedin və onlarla bir yerdə yemək yeyin. Qədir-Xum günü yoxsula verilən bir dirhəm 200 min dirhəmə bərabərdir. Bir-birinizlə görüşən zaman əl verin və bir-birinizi təbrik edin. Salam verin ki, Peyğəmbər (s) mənə belə əmr etmişdir".

### Qədir-Xum bayramının əməlləri

Qədir-Xum bayramı qəməri təqvimi ilə zilhiccə ayının 18-nə təsadüf edir. Bu günün müəyyən bəyanilən əməlləri var. Həmin günə aid əməllər:

***1. Bayram gününün qüslünü almaq;***

*2. Oruc tutmaq (bu günün orucu 60 ilin günahının kəffarəsinə bərabərdir; bəzi hədislərə görə, bu gün oruc tutan şəxsin savabı ömrü boyu tutduğu orucun savabına və həmçinin 100 həcc və 100 ümrə ziyarətinə bərabərdir);*

*3. Həzrət Əlini (ə) ziyarət etmək üçün məşhur olan "Əmin Allah" ziyarətnaməsini oxumaq;*

*4. Zöhrdən qabaq 2 rükətli namaz qılmaq. Yaxşıdır ki, birincü rükətdə "Həmd"dən sonra "Qədr" surəsi, ikinci rükətdə "Həmd"dən sonra İxlas" surəsi oxunsun. Yaxşıdır ki, bu namaz günorta azanına yaxın vaxtda qılınsın.*

*Namazı qurtardıqdan sonra səcdəyə getmək və səcdədə 100 dəfə Allaha şükür etmək. Sonra bu duanı oxumaq: ("Məfatihül-cinan" kitabının tərcüməsinin 569-cu səhifəsindəki dua). Duanı bitirəndən sonra yenə səcdəyə getmək və 100 dəfə "Əlhəmdulilləh" və 100 dəfə də "Şükran lilləh" demək lazımdır.*

*Hər kim bu əməli yerinə yetirərsə, sanki Qədir-Xum günündə Peyğəmbərin (s) yanında olmuş və o kəsin savabını qazanmışdır ki, Həzrətə vilayət beyəti etmişdir.*

*5. İki rükətli namaz qılmaq. Hər rükətdə "Həmd"dən sonra 10 dəfə "İxlas" surəsi, 10 dəfə "Ayətül-kürsi", 10 dəfə "Qədr" surəsini oxumaq, namazdan sonra bu duanı demək: "Rabbənə innənə səmi'nə munadiən əd-dua bitəvlihi". Hədislərdə qeyd olunur ki, bu namazın 100 min həcc və 100 min ümrə savabı var, eləcə də, dünya və axirət hacətlərinin Allah tərəfindən asanlıqla qəbul edilməsinə səbəb olur və insana salamatlıq nəsib olur;*

*6. "Nüdbə" duasını oxumaq.*

*7. Möminlər bir-biri ilə görüşən zaman desinlər: "Əlhəmdu lillahil-ləzi cəələna minəl mutəməssikin, bivilayəti Əmiril-mu'mininə vəl əimməti ələyhimus salam".*

*Sonra de: "Əlhəmdulilləhil-ləzi əkrəmənə bi-həzəl-yəvm, və cəələnə minəl-mufinə biəhdihi iləynə, və misəqihilləzi vəsəqanə bihi min viləyəti vuləti əmrih, vəl-quvvəmi biqistih, və ləm yəc'əlnə minəl-cahidin, vəl-mukəzzibinə biyəvmid-din". ("Məfatihül-cinan" kitabının tərcüməsinin 575-ci səhifəsində verilib).*

*8. Bu zikri 100 dəfə demək: "Əlhəmdulilləhil-ləzi cə'ələ kəmələ dinihi və təmamə ni'mətih, biviləyəti Əmiril-mu'mininə Əliyyibni Əbi Talibin ələyhis-sələm". ("Məfatihül-cinan" kitabının tərcüməsinin 576-cı səhifəsində verilib).*

*9. Qardaşlıq peymanı bağlamaq. Öz sağ əlini mömin qardaşının sağ əlinin üstünə qoyub belə desin: "Vəxaytukə filləhi və safəytukə filləh, və safəhtukə filləhi və 'ahədtullahə və mələikətəh, və kutubəhu və rusuləhu və ənbiyaəh, vəl-əimmətəl-mə'suminə ələyhimus-sələm, 'alə ənni in kuntu min əhlil-cənnəti vəş-şəfə'əh, və uzinə li biən ədxuləl-cənnəh, ləədxuluhə ilə və əntə məi". Bunu dedikdən sonra mömin qardaşın desin: "Qabiltu". Sonra desin: "Əsqəttu ənkə cəmi'ə huquqil-uxuvvəh, mə xaləş-şəfə'ətə vəd-du'aə vəz-ziyərəh". ("Məfatihül-cinan" kitabının tərcüməsinin 577-ci səhifəsində verilib).*

*10. Sileyi-rəhm etmək - qohum-əqrəbaya baş çəkmək;*

*11. Yeni libas geyinmək;*

*12. Möminlərlə bu günün yad edilməsi ilə bağlı yığışmaq;*

*13. Məsumlara (ə) salavat göndərmək.*




Bu günlə bağlı digər əməllər də var ki, müfəssəl kitablarda göstərilmişdir.

Qeyd edək ki, zülhiccə ayının 18-nə keçən gecə xüsusi namazın qılınması tövsiyə edilir. Bu namaz 12 rükətdən ibarətdir. Bütün 12 rükət namazın hamısı dalbadal qılınır və sonda bir salam deyilir. Namazdan sonra insan dua edərək Allahdan hacətlərini istəyir.

Bəli, Qədir-Xum - dinin kamilləşmə bayramı, mübarək dinimizin Allah Təala tərəfindən bəyənildiyi bir tarixdir.

***Allahım! Bizləri Qədir-Xumu dərk edənlərdən və yaşadanlardan qərar ver! Amin!***

**Hacı İlqar İbrahimoğlu**

# İNSANIN KAMİLLİK İMKANLARI

**Kamilliyə nail olmağın yolu nədir? Yəni, insan günahları və Şeytanı necə yenə bilər?**

Çox önəmli məsələlərdən biri günah və Şeytani vəsvəsələri yenmək, Şeytanın nüfuz imkanlarını önləməkdir. Aşağıda Şeytanın bəzi nüfuz imkanlarını diqqətinizə çatdırırıq:

**1. Tənbəllik və işsizlik;**

İslam peyğəmbəri (s) buyurur: "Allah işsiz gəncdən narazıdır" (Məhəmməd Mehdi Nəraqi, "Came əs-səadat", c. 1, səh. 152).

Buradan nizam-intizamın, proqramlaşdırmanın önəmi aydın olur. Yatması, yeməsi, təhsili və əyləncəsi üçün nizama salınmış proqramı olan gənc Şeytanın nüfuzuna macal buraxmaz.

**2. Yalnızlıq və xəlvətə çəkilmək;**

Əgər işsizlik və bekarlıq yalnızlıqla birgə olduqda yol Şeytanın nüfuz etməsi üçün daha hamar olur. Əlbəttə, o xəlvətə çəkilmələr ziyanlıdır ki, onda Şeytanın vəsvəsəsi və günah üçün şərait yaransın. Əks təqdirdə Allahla ünsiyyət qurmaq, münacat etmək, təhsil almaq üçün xəlvətə çəkilmək xoşagələn haldır.

**3. Təxəyyül qüvvəsinə nəzarəti itirmək;**

Təxəyyül qüvvəsini özbaşına buraxmaq, fantaziyalara qapılmaq Şeytanın təsir yolunu açır. Təxəyyülə nəzarətin, cilovunu qırmış günah dolu fantaziyaları qarşısını almağın ən yaxşı yolu "baxış"ı qorumaqdır. Qeyri-əxlaqi rəsmləri, səhnələri görmək təxəyyül gücünü iltihablandırır və aramsız hala salır. Çünki təxəyyül quşa bənzəyir. Özünü hər an bir budağa atır və insanı da özü ilə çəkir. İşlərində, inkişafında təmərküzləşməsinə mane olur.

İmam Xomeyni bu haqda yazır: "Bil ki, yanlış və qəbahətli xəyallar, batil təsəvvürlər Şeytanın təlqinlərindəndir ki,



o, öz qoşununu sənin batin məmləkətinə hökmran edir. ... Bu çox önəmli səngəri düşmənin əlindən al. Əgər bu savaşdan qələbə ilə çıxsan ümidvar ol" ("Qırx hədis", səh. 18).

Buna görə də insan bəzi kitabları, romanları oxumaqdan, kino filmlərə, xoşagəlməz səhnələrə baxmaqdan çəkinməlidir. Rəvayətlərdə günah baxış Şeytan tərəfindən atılan zəhərli oxa bənzədilmişdir.

**4. Qidalanmada diqqətsizlik;**

Allah Quranda buyurur: "İnsan hələ bir yeməyinə baxsın!" ("Əbəsə", 24).

Yaxşı olar ki, insan haram və halal olması baxımından qida və yeməyində diqqətli olsun. Haram xörəklər yemək insanın mənəvi yüksəlişinə, ruhi inkişafına çox pis təsir göstərir.

Həmçinin yeməyin miqdarına da diqqət yetirməlidir İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətdə deyilir: "Mömininin qəlb və ruhuna heç bir şey çox yemək qədər ziyan vurmur. Çox yemək iki şeyi özü ilə gətirir. Qəlbin daşlaşmasını və ehtirasın artmasını" ("Mizan əl-hikmə", c. 1, səh. 88).

**5. Allaha və axirətə diqqətsizlik;**

Allah Quranda buyurur:

"Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona Şeytanı ürcah edərik və onun (Şeytanın) yaxın dostu olar" ("Zuxruf", 36).

Allahı xatırlamaq, Onun nemətlərinə diqqətli olmaq insan qəlbindən qəflət və günah paslarını təmizləyir. Allahı xatırlamaq Şeytanın insan qəlbinə hakim kəsilməsinə mane olur.

Əsas etibarilə "zikr" (Allahı xatırlamaq) və "təfəkkür" qayəyə doğru aparan iki qanaddır. Namaz Allahı xatırlamağın ən bariz nümunəsi olaraq insanı günahdan çəkindirir:

"Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər"

("Ənkəbut", 45).

Əlbəttə, burada diqqətlə, təvazökarlıqla Rəbbin əzəməti qarşısında zillət hissilə birgə olan namazdan söhbət gedir.

Həmçinin Quran Allahı xatırlamağın, Onun zikrinin bariz nümunəsidir. "Şübhəsiz ki, "Zikr"i (Quranı) Biz nazil etdik" ("Hicr", 9). Təfəkkür və düşüncə ilə birgə tilavət olunarsa, nəfsin paklığında və günahdan uzaq qalmaqda çox mühüm rol oynayar. Əgər insan gündəlik həyatında dilini, düşüncəsini, qəlbini və davranışını Allaha yönəldərsə, Allah da onu unutmaz və öz lütfünü ondan əsirgəməz:

"Belə olduqda siz (itaətlə) Məni xatırlayın ki, Mən də sizi yada salım! Mənə şükür edin, Məni danmayın!" ("Bəqərə", 152)

**6. Xoşagəlməz sifətlər və əxlaqi qəbahətlər;**

Xoşagəlməz nəfsani sifətlər, misal üçün, tamah, həsəd, eqoizm, kinlilik, təşəxxüs, xəsislik və təəssüb hər biri Şeytanın insan nəfsinə daxil olması üçün bir vasitədir. Əxlaq alimlərinə görə, Şeytan ac it kimidir və uyğun yem ardınca gəzir. Xoşagəlməz xüsusiyyətlər, nəfsani pisliklər Şeytan üçün ləziz yemdir ("Came əs-səadat", c. 1, səh. 154).

Buradan özünü saflaşdırmış, gözəl əxlaq sahibi olan bir müəllimin önəmi aydın olur. Təcrübəli əxlaq müəllimi olmadan kamillik yolu çətindir. Buna görə də həzrət Musa (ə) həzrət Xızıra (ə) deyir:

"Öyrədildiyin doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənə tabe olummu?" ("Kəhf", 66)

**7. Günahın mənfi nəticələrindən xəbərsiz olmaq.**

Günahın və Şeytanın azdırıcı vəsvəsələrinin mənfi nəticələrinə, təsirlərinə diqqət yetirmək çox çəkindirici rola malikdir. Dini mətnlərdə günahın insanların gözündə kiçilmək, rüsvay olmaq, ələmli və ağır əzab kimi acı təsirindən əlavə digər dünyəvi nəticələrindən də söhbət açılmışdır. Misal üçün, ruzinin kəsilməsi, öyrəndiklərinin yaddan çıxması, gecə ibadətlərindən məhrum olmaq, həyatda nemətlərdən məhrum olmaq, yağış və digər səmavi nemətlərdən məhrum olmaq və s. ("Mizan əl-hikmə", c. 2, səh. 995)

Allah-Taala bəzi Quran ayələrində insanın başına gələcək bəla və müsibətlərdən, insanın əməllərinin nəticəsi olaraq quru və dənizdə fəsadların meydana gələcəyindən söhbət açır:

"Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların (etdiyiniz əməllərin) ucbatındandır! (Bütün bunlara baxmayaraq) Allah (günahlarınızın) çoxunu əfv edər" ("Şura", 30).

"İnsanların öz əlləri ilə etdikləri (pis əməllər, günahlar) üzündən quruda və suda fəsad (pozuntu) əmələ gələr (bəzi yerlərdə quraqlıq, qıtlıq olar, bəzilərində zərərli yağışlar yağar, zəlzələ baş verər, dənizlərdə gəmilər batar) ki, Allah (bununla) onlara etdiklərinin bir qismini (etdikləri bəzi günahların cəzasını) daddırsın və bəlkə, onlar (tövbə edib pis yoldan) qayıtsınlar" ("Rum", 41).

**Sonda iki önəmli məqamı diqqətinizə çatdırırıq:**

1. Ariflərə görə, insan nə qədərki mütləq kamillik dairəsinə girməyib, günah və şeytani vəsvəsələrin əlindən tam olaraq qurtula bilmir. Varlığın mənşəyinə, intəhasız kamilliyə, yəni Allaha eşq və iman, Onunla aşiqanə ünsiyyət insanın Şeytan və günah tələsindən xilas olmasına səbəb olur. Allah Quranda möminləri Onu çox sevənlər olaraq təqdim edir:

"Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir" ("Bəqərə", 165).

Həmçinin kamil insana, Allahın gözəl sifətlərinin və adlarının simvolu olan, Rəbbin bütün kamilliklərini, yaxşılıqlarını göstərən bir ayna olan Allahın vəlisinə sevgi ən böyük səadət amilidir. Buna görə də Əhli-beytə təvəssül etmək, o kamil və pak insanlarla ünsiyyət təkidlə tövsiyə olunmuşdur.

2. "Müşaritə", "müraqibə", "mühasibə" və "müaqibə" üsulunun da insanın günahdan qorunmasında layiqli rol oynayır. Nəfslə sübh çağı günah etməyəcəyinə dair şərt kəsmək, gün ərzində onu nəzarətdə saxlamaq, gecə haqq-hesab çəkmək və günah etdikdən sonra qınamaq təcrübəli əxlaq alimlərinin təkid etdiyi yollardandır.

Tərcümə edən: **Maqsud Sayıl**

# Nə üçün hacılar saat əqrəblərinə əks istiqamətdə təvaf edirlər?



Şəriətdə göstərilən hər bir məsələnin elmi açıqlaması var. Həcc məsələsində də qeyd edilir ki, hacılar sol tərəfə - saat əqrəblərinə əks istiqamətdə təvaf etməlidirlər və ya əksər müctəhidlər bildirirlər ki, Kəbə ilə İbrahim (ə) məqamı arasında təvaf edilməlidir. Bütün bunların fizika elmi ilə əsaslandırıla bilər. Şimal yarımkürəsində yerləşən Kəbədə hər bir zərrə və ya cisim saat əqrəblərinə əks istiqamətdə fırlandıqda ona 5 qüvvə və enerji əlavə edilir ki, onların da hərəkət istiqaməti daxilə doğrudur. Təvaf məsələsində də eyni proses baş verir. Burada zərrələr insanlardır və bu enerji toplusu mərkəzə - Kəbə evinə tərəf yönəlir.

Əgər sağ tərəfə təvaf edilsəydi, fizikada qeyd edildiyi kimi mərkəzdənqaçma baş verərdi və zərrələr - insanlar xaricə atılardılar, onların enerjisi mərkəz səmtinə - Kəbəyə yönəlməzdi.

Əgər Kəbə cənub yarımkürəsində yerləşsəydi, dinimiz sağ tərəfə təvaf etməyi əmr edərdi.

Amma Kəbə ilə İbrahim (ə) məqamı arasında təvaf eləməyə gəlincə, fırlanma hərəkətinə malik hər mütəhərrik cisim şüa azaldıqca, ixtiyarsız olaraq sürəti və mərkəzə tərəf təmayülü çoxalır. Buna görə də əksər müctəhidlər deyirlər ki, təvaf bu məsafədə yerinə yetirilsin. Çünki belə olan halda artım və yüksəliş baş verir.

# İSLAM VƏ BAŞQA DİNLƏRDƏ MEHDİ

***Bəşəriyyət müharibələrə və haqsızlıqlara sürükləndikcə Mehdi inancı daha çox aktuallıq qazanır. Gələcəyə böyük inam, sülhün yer üzündə həmişəlik olması insanın fitrətindən doğan istəklərdir. Yaradılışdan İnsan oğlu daima xoşbəxtliyə can atır və bu hislər heç vaxt ondan ayrılmır. Zamanından, məkanından, millətindən asılı olmayaraq, sülhə və ədalətə olan istək insanın zatından doğan ülvu bir hissdir. Buna görə də, bütün insanlar öz yaradılışından qaynaqlanan istək və arzulara tabe olaraq nə vaxtsa dünyanın xilaskarının gələcəyinə və İlahi nizama və fitrətə əsasən zülmün və zalımların əlindən nicat tapacaqlarına inanırlar. Nəticədə əsl insan həyatına nail olmaqla fəlakət və iztirab yükündən azad olub kamala çatacaqlar.***



Bu dəlillərə əsasən dünyanın bütün dinlərində gözlənilən xilaskara rast gəlmək olar. O, öz gəlişi ilə insanlığa zidd olan bütün cinayətlərə son qoyacaq. Bütün yer üzü onun vahid hakimiyyətinə tabe olacaq, mütləq ədaləti bərpa edəcək...

Dinindən asılı olmayaraq zülmə məruz qalan insanlar üzünü tabe olduğu dinə tutaraq xilaskar axtarır. Ürəyində olan şübhələrə son qoymaq və daha çox yəqin əldə etmək üçün bu xilaskarın başqa dinlərdə də olması haqqında maraqlanır. Axı bütün dinlərin mənşəyi Allaha qayıdır. Hətta təhrif olunmuş, müxtəlif səbəblərdən zaman keçdikcə aşılanmış dinlər belə öz bətnində İlahi bir tövhid rüşeymi daşıyır.

Başqa dinin ardıcılları kimi müsəlman olan hər bir insan daha çox yəqin əldə etmək üçün soruşur: İslamda olduğu kimi, başqa dinlərdə də axır zamanda gələn nicatverici haqda qeyd olunur mu?

Allah-Təala tərəfindən göndərilən bütün peyğəmbərlər lap qədimdən gətirdikləri dinlərdə zaman-zaman bu müjdəni insanlara vermişlər. Zühur və onun əlamətləri mövzusu dünyanın bütün dinlərində eyni əhəmiyyətə malik xüsusi bir mövzudur. İstənilən əqidə gözü ilə baxsaq, bəşəriyyətin əvvəlindən bu mövzunun kökü hər bir fərdin arzusu olaraq mənəvi kamala çatmaq istəyindən qaynaqlanır. Amma təəssüflər olsun ki, hələ də ümumi halda bəşəriyyət qəflət içində fəsada sürüklənməkdədir, Allahdan uzaqlaşdıqca İlahi nizamı pozur və öz öhdəsinə düşən vəzifəni layiqincə icra etmir. Əslində isə qəflətdən ayılıb öz zatı fitrətinə söykənərək fəsad və zülmün aradan qalxması üçün Allahdan kömək istəməlidir.

Göründüyü kimi, bütün əsrlərdə insanların ürəklərində bir böyük xilaskarın gəlişi öz əksini tapır. Bu əqidə təkcə İslam, Xristianlıq, Yəhudilik kimi böyük dinlərdə deyil, hətta qədim Çin, Hind, Misir dinlərində, Skandinaviya ərazisində olan qədim dinlərdə də mövcuddur.

Qeyd edilməlidir ki, müxtəlif din və məzhəblərin, millət və qövmlərin ardıcılları, eləcə də bu mövzuda araşdırma aparan çoxsaylı tədqiqatçılar İmam Mehdinin (ə) adı məsələsində ixtilafa düşmüşlər. Müsəlmanlar onu gözlənilən, vəd olunmuş Mehdi, başqa dinlərin ardıcılları isə dünyanın islahedicisi, qeybdən gələn xilaskar, asimanın nicatvericisi və yaxud böyük xilaskar adlandırmışlar. Amma ortaq nəzər olaraq bütün dinlər onu ədalət əsasında vahid dünya hökuməti quracaq xilaskar kimi qeyd etmişlər.

Beləliklə, dünya dinlərində Mehdişünaslıqla bağlı məsələlərə nəzər salaq:

**Xristianlıqda axır zamanda gələn xilaskar**

Xristianlıqda ən mühüm əqidə prinsiplərindən biri İsa Məsihin (ə) qayıdışı məsələsidir. Xristianlara görə, İsa Məsih (ə) çarmıxa çəkilərək qətlə yetirilib. Sonra diriləræk səmaya qalxıb və axır zamanda qayıdaraq dünyanı nurlandıracaq. Axırıncı xilaskar odur. Necə ki, İncildə oxuyuruq:

“Ey atalarımızın tanrısı! Sən ki, İsanın çarmıxa çəkilməsinə və ölümünə izn verdin. Onu bizə qaytar. Onu Tanrı öz sağ əli ilə göylərə apardı, müjdə və nicatverən etdi ki, İsrail övladlarının tövbəsi və bağışlanma səbəbi qərar versin”( Rəsulların əməlləri, c. 5, s. 31.)

“Lakin eşitdik və bildik ki, O (gözlənilən) həqiqətən Məsihdir. Aləmin xilaskarıdır”.( Yühənna İncili, 8 fəsil, 4 bölüm, s. 253)

Əlimizdə olan İncillərdən anlaşılır ki, xristianlıqda da Mehdişünaslıq düşüncəsi barədə intizar fəlsəfəsi mövcuddur. Nümunə üçün bir neçə məsələyə nəzər salaq. Luka İncilində deyilir:

“Kəmərlərinizi belinizə bağlayın, çıraqlarınızı yanılı saxlayın. Toydan qayıdan ağalarının qapını döydüyü an

onların üzünə açmağa hazır olanlar kimi olun. Ağaları gələndə oyaq olanların xoş halına. Siz də hazır olun. Çünki insan oğlu siz güman etmədiyiniz vaxt gələcək". ( Luka İncili, 12-ci bölüm, 35-40)

Luka İncilinin başqa bir yerində zühur əlamətinə işarə edilir: "Döyüş və üsyan xəbərləri duyunca narahat olmayın. Öncə bunların olması lazımdır. Amma bu son deyil. Sonra onlara dedi: "Millət millətlə, ölkə ölkəylə vuruşacaq. Yer üzündə şiddətli zəlzələlər, aclıq və xəstəliklər, dəhşətli hadisələr və səmadan qeyri adi əlamətlər olacaq. Amma bütün bu əlamətlərdən qabaq sizə çox zülm olunacaq. Sizi zindanlara atacaq və işgəncələr edəcəklər. Mənim adımı çəkdiyiniz üçün hakimlərin və sultanların qarşısına çıxarılacaqsız".

Matta İncilində deyilir: "İnsan oğlu öz görkəmində mələklərlə gələcək və öz taxtına oturacaq. Millətlərin hamısı onun önündə toplanacaq. O da qoyunları keçilərdən ayıran bir çoban kimi insanları bir-birindən seçəcək. O zaman O sağındakı insanlara deyəcək: "Gəlin, ey Atamdan bərəkətlənənlər". Dünya yaranandan sizin üçün hazırlanmış varislik mirasını alın!" ( Matta İncili, 25-ci bölüm, 31-34)

Matta İncilinin başqa bir fəslində deyilir: "Əgər o zaman kimsə sizə desə ki, Məsih ordadır, ya Məsih burdadır – inanmayın! Çünki, yalançı müjdələr və peyğəmbərlər yaranacaq. Böyük möcüzələr və xaruqulada işlər edəcəklər. Elə işlər ki, hətta seçilmiş insanları belə azdıracaq. Baxın, mən sizə əvvəlcədən xəbərdarlıq edirəm! Sizə əgər Məsih çöldədir desələr, getməyin, otaqdadır desələr, inanmayın. Çünki İnsan oğlunun gəlişi şərqdən çıxıb qərbə kimi işıq saçan bir şimşək kimi olacaq".

Markus İncilində deyilir: "Oyaq qalın. Çünki, İnsan oğlunun nə vaxt gələcəyi məlum deyil. Gəlişinin axşam ya gecəyarı, ya da xoruzlar banlayanda olması bilinməz. Baxın ki, gələndə sizi yuxuda görməsin. Hamıya dediklərimi sizə də deyirəm. Oyaq olun". ( Markos İncili, 13-cü bölüm, 35-37)

Göründüyü kimi, İncillərdə olan bu ayələr Xristian dünyasını intizarda saxlayır, dünyanın xilaskarı və nicatvericisinin gəlişinə kökləyir. İstisnasız olaraq, onların hamısı insan oğlunun gəlişini böyük ümidlə, hər an gözləməkdədir. Gəlişə hazır olmaq və bu hazırlığı hər bir insanın özündən başlaması zəruridir.

Xristianlar intizara olan bağlılıqlarının çoxluğundan tarix boyu zənnə qapılaraq İsanın (ə) gəlişini öncədən dəqiq tarixlə xəbər verməyə çalışmışlar. Bunun nəticəsində çoxsaylı firqələr yaranmışdır. Məsələn, 16-cı əsrdə Anabatist firqəsi Məsihin çox yaxında gələcəyini deyərək, onun gəlişinə və səltənətinə zəmin yaratmaq üçün bir cox şəhərləri işğal etmişdir. Nəticədə bu qiyam amansızlıqla yatırılmışdır. Bundan başqa İryuinglər Məsihin gəlişini sürətləndirmək üçün on iki həvari təyin etmiş, lakin bu işdən heç bir nəticə ala bilməmişlər.Yaxud Yahova şahidləri firqəsi Amerikada Məsih üçün böyük mülk hazırlamışlar.

Müasir Xristianlıqda da intizar şövqü və eşqi hələ də yaşamaqdadır. Buna dəlil kimi aşağıdakı fikirləri göstərə bilərik. Belə ki, Xristianlığın bəzi firqələri Məsihin gəlişinin çox yaxında olduğunu və minillik hökumət quracağını düşünərək uzun zamandır kiçik firqələr şəklində "minillikçilər" adı altında bütün səy və təlaşlarını zühura hazırlığa sərf etmişlər. Məsələn, 1843-cü ildə yaranan "Yeddinci günün Adventistləri" firqəsi bu əqidə ilə günümüzə qədər gəlmişdir. İranın Xristian böyüklərindən biri öz müsahibəsində deyir: "Bizim dinimiz də əksər dünya dinləri kimi bir nəfərin gəlişinə etiqad bəsləyir. İsanın (ə) yenidən qayıdışına inanır. Bütün Xristianlar bu əqidədədir. İncildə oxuyuruq ki, İsa buyurur: "Mən indi gedirəm və qayıdacam". Hətta kilsələrimiz bazar günü olan bayramlarımıza "qayıdış günü" adını verir".

### Yəhudilikdə axır zamanda gələn xilaskar

Yəhudilərin müqəddəs kitabı olan Qədim əhdin əvvəli (hansı ki, Tövrat adı ilə məşurdur), axır zamanda gələcək xilaskar haqqında məlumatlarla başlayır.

**1. Həzrət Davudun (ə) Zəburunda 37-ci nəğmə**

Allah Davuda (ə) intizar ilə təsəlli verir, onu intizara çağırır. Ona vəd verir ki, şərrin çoxluğundan narahat olmasın. Deyir: "Ey Davud! Qəmgin olma, Allah intizarda olanları yer üzünün varisləri edəcək. Lənətlənmişlər öz başına buraxılacaq. Salehlər o insanlardır ki, yer üzünün varisləri olacaqlar. Dünyanın axırına kimi orada qalacaqlar". Qurani-Kərimdə də bu mənanı verən intizar öz əksini tapır:

"Həqiqətən Biz Zikrdən (Musanın Tövratından) sonra (Davudun) Zəbur(un) da yazdıq və qərara aldıq ki, bu yerin varisi (sahibi, hakimi və bərəkətlərindən tam istifadə edən) Mənim saleh bəndələrim olacaqlar".

**2. Kitabi-Müqəddəsdə Heyquq peyğəmbər (ə) bölümündə deyilir:**

"Əgər sənin üçün nəyi isə təxirə salsaq onun intizarında ol. Sözsüz ki gələcək. Bütün ümmətləri öz yanında toplayacaq."

Qurani-Kərimdə iki yerdə bu barədə deyilir:

"De: «Qeyb yalnız Allahın ixtiyarındadır. Buna görə də, gözləyin ki, mən də mütləq sizinlə birgə gözləyənlərdənəm".

"De: «Gözləyin, həqiqətən mən də sizinlə gözləyənlərdənəm".

**3. Kitabi-Müqəddəsdə Səfniya peyğəmbər (ə) bölümündə deyilir:**

"Gözləyin! Çünki mən ümmətləri bir yerə yığmaq istəyirəm. Mülkləri toplamaq istəyirəm. O zaman ümmətlərə pak bir dil verəcəyik. Onlar hamısı Allahın adını çəkəcək və ürəkdən ona ibadət edəcək".

**4. Kitabi-Müqəddəsdə Daniyal peyğəmbər (ə) bölümündə deyilir:**

"O zaman Qaimin qövmünün oğullarından olan böyük Mikayil qalxacaq. Məhz o zaman sənin kitabında yazılanlar qövmün tərəfindən həyata keçiriləcək".

"Ey Daniyal (ə), amma sən sözlərimi sirr saxla, kitabı zamanı gələnə qədər aşkara çıxarma. O zamana kimi ki, çoxlu səfər edib xəbərdar olasan. Çayın yuxarısında dayanan və kətana bürünmüş o insanı görəsən. Elə bir halda ki, sağ və sol əlini göylərə qaldırmış ucadan əsl bəndə kimi and verir ki, müqəddəs qövmünün pərakəndəliyinə son qoyulsun, bütün bu hadisələr sona çatsın".

**5. Əşəyanın kitabında deyilir:**

"Öz kökündən pöhrələnən budaq kökünü də özü ilə aparacaq. Hikmət




ruhu, mətanət, din, hakimiyyət, elm, iradə Tanrı tərəfindən ona veriləcək. O, Tanrının istəyini həyata keçirəcək. Qaydalara uyğun və qulaqların eşitmədiyi hökmlər verəcək. Zəlillərə ədalət, miskinlərə torpaq verəcək. Torpağı əsasının başı ilə, ruhları dodaqları ilə şərdən təmizləyəcək. Ədalət kəmərini belinə taxacaq və vədələrinə vəfa edəcək. Qurd quzu ilə sakit yaşayacaq. Şir, keçi, buzov bir yerdə yatacaq. Körpə uşaq onlara çobanlıq edəcək".

Əsrlərdir təhrif olaraq bizə gəlib çatmağına baxmayaraq Yəhudilərin hal-hazırda əlimizdə olan mənbələrində də ədalət gətirəcək fövqəladə bir insanın gəlişi gözlənilir. Günümüzdə də aydın görünür ki, yəhudilərin hazırkı dua və ibadətləri intizar fəlsəfəsindən kənarda qalmayıb. Bir neçə nümunəyə nəzər salaq:

1. Müqəddəs kitabda olan ibranicə "Qaduşa" (Qaduşa"kəlməsi dua və yalvarış mənasındadır. Yəhudilərin həftəlik dualarından biridir) kəlməsindən açıq-aşkar intizar başa düşülür. Bu, müasir yəhudilərin də kiminsə intizarında olmaqlarına bariz nümunədir. Müqəddəs kitabda gözlənilən xilaskara işarə olunaraq deyilir: "Ey bizim Padşahımız! Öz məqamını aşkara çıxar və bizə hökmranlıq et. Çünki biz sənin intizarındayıq".

2. Müasir yəhudilər bir neçə ildən bir İsrailin təməlini qoyanın şərəfinə mərasim keçirir. O mərasimdə bu dua oxunur: "Ey Rəbbimizin iradəsi! Onun şahidi olmağı və azad olmağı bizə mübarək et. Məsihanın surunun səsi qulaqlarımızı oxşasın".

3. Yəhudilərin namazlarının yeddinci bəndində buna işarə edilir: "Gözlərimiz sənin rəhmət qapısı olan Siyondan qayıdışını görsün".

Başda bir bənddə oxuyuruq: "Ey çarəsiz İsrail oğulları! Yad torpaqlarda qullar və nökərlər oldunuz. O vaxt ki, onu tərk etdiniz. İndi biz onun intizarındayıq".

Gördüyümüz kimi, indinin özündə də Yəhudilikdə keçmişdə olduğu kimi intizar fəlsəfəsi mövcuddur. Bu barədə daha ətraflı məlumatlar almaq üçün Yəhudi mənbələrinə müraciət edə bilərsiz.

### Zərdüştlükdə xilaskar məsələsi

Əksər İslam araşdırmaçıları Zərdüşt adlı bir şəxsiyyətin yaşamasını təsdiq edirlər. Amma onun həyatının incəlikləri və peyğəmbər olması mübahisəli məsələlərdəndir. Buna baxmayaraq bir çox İslam tarixçiləri onu Ormiya peyğəmbərin və ya Əziz peyğəmbərin şagirdi olaraq tanıyır.

Amma Zərdüştlər inanırlar ki, Həzrət Zərdüşt İsanın (ə) doğumundan əsrlər öncə dünyaya gəlmişdir. 30 yaşında xüsusi mənəvi məqama çatdıqdan sonra Ahura-Məzda tərəfindən peyğəmbər seçilmişdir. Zərdüştlükdə təzadlar və ikitanrılıq öz əksini tapsa da, günümüzdəki davamçıları özlərini təktanrılı hesab edirlər. Zərdüştlərin müqəddəs kitabı Avestadır. Ehtimal olunur ki, ilk olaraq məhz Zərdüştlük dini yaxşılıq və pislik, xilaskarın gəlişi, dünyanın ədalətlə islahı təlimlərini irəli sürmüşdür. Zərdüştlər Avestanın dediklərinə əsasən inanırlar ki, Zərdüştdən sonra dünyanın axırına yaxın hər biri min il olmaqla üç fasilə ilə Aşud, Aşud-Remah və Suşiyanit adlı xilaskarlar gələcək. Hər biri öz zamanında dünyada ədalət bərqərar edəcək. Üçüncü Suşiyanit adlı xilaskarlar hələ doğulmayıb. Üçüncü minillikdə dünyanı yenidən quracaq. O, Zərdüştün sonuncu olan üçüncü oğlu və Ahura-Məzdanın sonuncu yaratdığı varlıq hesab olunur.

İndi isə Avestada və Zərdüştlərin digər müqəddəs hesab etdiyi kitablarda Mehdi inancına nəzər salaq:

1. Ey Məzda! Ağ üzlü, nurani qalib dünyanı tutacaq. Nur saçan din bütün dünyaya nur saçacaq! Suşiyanitlər çoxlu olacaq ki, işləri aydınlatsın, dini yaysın. (Avesta, Yəsnahat bölümü, s.19)

2. Zərdüştlərin Camasıf kitabında oxuyuruq:

"Yerdən bir nəfər çıxacaq. Haşım oğullarının ziyanına olan bu adamın başı, ayağı və bədəni yekə olacaq. Öz ata-babalarının dinində olacaq. Böyük ordu ilə İranda bərabərlik və quruculuq edəcək. Yer üzünü ədalətlə dolduracaq…"

1. Avestanın Katha bölümündə deyilir:

"Ey Məzda aydınlıq günü gəlib çatacaq. Dünyanı doğru din bürüyəcək. Elm və bilik dolu, pislikləri qovan Bəhmən (düzlük və səxavət) öz sevənlərinə tərəf gələcək. Özünüdərki bərpa edəcək və divar çəkəcək".

2. Avestanın bir bölümü olan Yəşt kitabının 146-cı sütununda oxuyuruq:

"Müjdələr olsun, ruhları və şahidlikləri gözəl olanlara, tezliklə bu yerdən bizə doğru görüşümüzə tələsəcəklər. Bizim köməyimizə gələcəklər. Çətinliklərə düşdükdə bizim aşkar qoruyucumuz özü bizi qoruyacaq. Ahura-Məzdanın köməyi ilə".

Müasir Zərdüştlər öz bayramlarında, digər mərasimlərində və oxuduğu dualarda bir daha təsdiq edirlər ki, onlar xilaskarın intizarındadırlar.

1. Əşm Ahura-Məzda duasının əvvəlki bəndinin13-cü sətirindəki olan və üç dəfə təkrarlanan sözlər, Yəsperd və digər mərasim əməlləri üç xilaskarın intizarından xəbər verir.

2. Zühurdan əvvəl ən yaxşı camaat o camaatdır ki, dinin və dindarlığın zəifləməsinə baxmayaraq hələ də cəng kəmərini ayinlərə uyğun olaraq yanında hazır saxlayır. Bu ayinə öz

sədaqətini göstərir. Öz duaları ilə xilaskarın gəlişini tezləşdirir.

## Hinduizm və xilaskar inancı

Hind ayinlərində də xilaskar inancı öz əksini tapır. Bu xilaskar Kolki və ya Kolkin adı ilə adlandırılır. Hinduizm inancına görə dünya dörd tənəzzül dövrü keçməlidir. Dördüncü dövr ümumi olaraq zülm və qaranlıqlar dövrüdür. Ləyaqətsiz insanların hakimiyyəti və talanı dövrüdür. Yalan və xəyanət bu dövrdə dünyanı bürüyür. Hinduizmin inancına görə məhz bu əsrdə Dərmihin (kahinliyin və ya dinin) dörddə birinə əməl olunacaq, dörddə üçü isə unudulacaq. İndi isə bu məsələlərə daha ətraflı nəzər salaq. Bu qaranlıq və tənəzzül dövrünün axırında Kolki və ya Kolkin adlanan Vişnu ağ ata süvar olaraq əlində şimşəkdən olan qılıncla zühur edəcək. Yer üzündə şəri və zülmü məhv edəcək. Ədaləti və yaxşılığı bərpa edəcək.

Deyilməsi vacib olan məsələlərdən biri də budur ki, Hinduizmin müqəddəs kitablarında Həzrət Mehdinin adı çəkilmiş və onun qiyamı haqda müjdələr verilmişdir. Bəzi nümunələrə baxaq:

1. Hinduizmdə müqəddəs kitab sayılan "Did" kitabında deyilir: "Hərcmərclik baş alıb gedəndə axır zaman padşahı zühur edəcək. Onun adı Mənsurdur. ( Mənsur İmam Mehdinin (ə) adlarından biridir. "Nüdbə" duasında bu ad çəkilir) O, bütün dünyanı tutacaq. İnsanları mömin və kafir olaraq ayıracaq.

2. Hindlilərin peyğəmbəri olan Şakmuti öz kitabında deyir: "Hər iki cahanın oğlu, məxluqatın seyrcisi Böyük Keşnin (Keşn hind dilində İslam Peyğəmbərinin (s) adıdır) oğullarından olanın padşahlığı ilə dünya sona çatacaq. O, dünyanın şərqinin dağlarından qərbinin dağlarına kimi hökm verəcək. Buludlara süvar olacaq, mələklər onun qulluqçusu olacaq. İnsanlar və cinlər onun xidmətçisi olacaq. Sudandan şimal qütbünə kimi, dənizlərə kimi sahib olacaq. Allahın dini vahid din olacaq, din dirçələcək. Onun adı Qaimdir. Allahı layiqincə tanıdacaq".

3. Hindlilərin böyük və səmavi kitab hesab etdikləri növbəti kitabları Patkildə də axır zamanda gələcək xilaskardan bəhs olunmaqdadır. Bu kitab müjdə verir ki, nicatverici İslam peyğəmbərinin nəslindən olan, onun vəsisi Əli ibn Əbu-Talibdir. Onun adı yol göstərən və aydınlayıcıdır.

"Bir müddət keçəcək dünya yeniləşəcək, diriləcək. Köhnə dünyaya yeni həyat verəcək olan Mülkün yeni sahibi gələcək. Dünyanın İki böyük öncülünün biri olan Axır zamanın namusu gələcək".

"O biri sadiq olan böyük, onun böyük vəsisi Paşin ( Paşin Hind dilində Əli ibn Əbu-Talibdir (ə)) yolgöstərəni olacaq. Həqiqi padşah və Ramın xəlifəsi olacaq. Hökm verəcək və çoxlu möcüzələr göstərəcək. Hər kəs ona pənah aparsa və onun atalarının dinində olsa ağ günə çıxacaq. Ramın hüzurunda və onun dövləti qarşısında çox hörmətli olacaq. Onun dövləti uzun sürəcək. Ömrü Böyük Namusun övladlarından çox




olacaq. Onunla dünya sona çatacaq".

Beləliklə aydın olur ki, qədim Hind dinlərində də nicatverici olan bir xilaskarın gələcəyı öz əksini tapır. Bu əqidə üsulu onlarda da qəti və danılmazdır. Müqəddəs kitablarında bu barədə saysız-hesabsız müjdələr verilir.

## Buddizm və xilaskar əqidəsi

Buddizm dini Hind dinlərindən biri olaraq təşəkkül tapmış və zamanla Hindistandan kənara çıxmışdır. Şərqdə özünə çoxlu ardıcıl qazanmasının səbəbi əhalinin sıx olduğu şəhərlərdə təbliğ olunması olmuşdur.

Mehdişünaslıq təfəkkürü Buddizm ayinlərində Mitra məfhumu ilə bəyan olunur. Mitra (Sanskrit dilində "Mitra" mehriban deməkdir) Budda ilahiyyatında beşinci Budda və yer üzündə olan Buddaların axırıncısı hesab olunur. Onun gəlişi gözlənilir. Buddizmdə məhz gözlənilən xilaskar da odur. O rəmz olaraq heybətli, hazır vəziyyətdə oturmuş kişi surətində təsvir edilir.

İntizar fəlsəfəsi və vədə olunmuşun gəlişinə etiqad buddizm inancında da əsaslı şəkildə özünə yer etmişdir. Hətta bəzi vaxtlarda müxtəlif insanları xilaskar hesab etmiş və onun ətrafında birləşməyə can atmışlar. Nümunə üçün deyə bilərik ki, Şimali Birmada camaat inanır ki, hazırkı din rəhbəri həmən Mitradır. Yaxud Asiya Buddistləri hesab edirlər ki, Mitra gələcəyin rəhbərlərindəndir və onu səbirsizliklə gözləyirlər. Hətta bəzi hallarda ictimai və dini işlərdə fəal olan müxtəlif cərəyanların banilərini də Mitra hesab etmişlər.

Diqqət edəcəyimiz maraqlı nüanslardan biri də odur ki, buddistlər bəzi müqəddəs hesab etdiyi kitablara əsasən eyni ilə müsəlmanlar kimi elə bir şəxsiyyətin gəlişini gözləyirlər ki, O, İslam Peyğəmbərinin nəslindəndir. Necə ki, buddistlərin "Dadang" adlı kitabında Buddanın adından nəql edilir: "O vaxt (dünya fəsadla dolduqdan sonra) sağ əllərin canişini Məmata zühur edəcək. Aləmin Şərqindən Qərbinə kimi hökmü altına alacaq. İnsanları yaxşılığa dəvət edəcək və haqdan başqa heç nəyi qəbul etməyəcək. Çoxlu inkarçı günahkarları qətlə yetirəcək və çoxlu insanları hidayət edəcək…"

Buddistlərin xilaskar gözləntisi və axır zamanda nicatverici bir insanın gəlməsi ilə bağlı olan əqidələri danılmazdır. Əlavə olaraq bu əqidə fonunda İntizar fəlsəfəsinin də onlarda olması sabit olunmuş faktlardandır. Belə ki, intizar zühurun bir nəticəsi və onu yaşadan amillərdəndir. Bu barədə Hind ayinlərində ətraflı söhbət açdıq.

Beləliklə, aydın olur ki, bütün dinlərdə və ayinlərdə, axır zamanda zühur edəcək və insanlıq əleyhinə cinayətlərə son qoyacaq xilaskardan bəhs edilir. Allah tərəfindən göndərilən bütün peyğəmbərlər və nəbilər hər zamanda bu böyük müjdəni vermişlər. Hər dinin özünəməxsusluğunu, müxtəlif zamanlarda və müxtəlif millətlərə, mədəniyyətlərə öz dillərində gəlməyini nəzərə alsaq axır zaman xilaskarının adının bu ayinlərdə müxtəlifliyi qətiyyən təəccüb doğurmamalıdır. Buna baxmayaraq zühurun əlamətləri, xüsusiyyət və nəticəsi bütün dinlərdə ortaq nöqtə kimi qeyd olunmalıdır.

**Səyavuş Yəhyayev**

# BƏNDƏNİN ALLAH-TAALAYA 23 SUALI VƏ QURANİ-KƏRİMİN MÜKƏMMƏL CAVABLARI NƏ OLDU?




*1-Qəlbimdə belə bir sual qarşıya çıxdı! İlahi görəsən bizləri niyə xəlq etmisən? Buyurdu: "Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!" (Zariyat 56)*

*2-Dedim: İlahi çox naümidəm! Buyurdu: "Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir! (Zümər surəsi 53)*

*3-Dedim: İlahi! Heç kəs bilmir ki, mənim qəlbimdən nələr keçir? Buyurdu: "Bilin ki, Allah insanla onun qəlbi arasına girər (insanın bütün varlığına hakim olar; Allah ürəklərdən keçən hər şeyi bilir, bütün ürəklərin ixtiyarı da Onun əlindədir) və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!" (Ənfal surəsi 24)*

*4-Dedim: İlahi! Səndən başqa heç kimim yoxdur! Buyurdu: "And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!" (Qaf surəsi, 16)*

*5-Dedim: İlahi! Sanki məni unutmusunuz? Buyurdu: "Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Məni inkar etməyin!"*

*(Bəqərə surəsi, 152)*

*6-Dedim: İlahi! Nə vaxta kimi belə olacam? Buyurdu: "Onu ancaq Allah bilər!" Nə bilirsən, bəlkə də, o saat (qiyamət) yaxındır)." (Əhzab surəsi 63)*

*7-Dedim: İlahi! Sən əzəmətlisən ona görə də sənə yaxındır, amma mən kiçiyəm mənə görə uzaqdır. Bəs mən nə edim? Buyurdu: "Sənə nə vəhy gəlirsə, ona tabe ol. Allah hökm (zəfər hökmünü) verənə qədər səbr et. O, hökm verənlərin ən yaxşısıdır!"*

*(Yunus surəsi 109)*

*8-Dedim: İlahi! Sən çox sakitsən! Sən Pərvərdigarsan və aramsan, amma mən kiçiyəm və narahatam. İlahi işlərimi yoluna qoy! Buyurdu: "Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər.(Onu) Allah bilir, siz bilməzsiniz."*

*(Bəqərə surəsi 216)*

*9-Dedim: İlahi! Sənin qüdrətsiz və zəif bəndənəm, Öz mərhəmətindən mənə də aid elə! Buyurdu: "Allah insanlara qarşı, əlbəttə, mehribandır, mərhəmətlidir." (Bəqərə surəsi 143)*

*10-Dedim: İlahi! Darıxıram. Qəlbim sıxılır! Buyurdu: "Allahın neməti və mərhəməti ilə - ancaq onunla sevinsinlər. Bu onların yığdıqlarından (fani dünya malından) daha xeyirlidir!" (Yunis surəsi 58)*

*11-Dedim: İlahi! Sənə təvəkkül edirəm! Buyurdu: "Həqiqətən Allah (Ona) təvəkkül edənləri sevər!"*

*( Ali İmran surəsi 159)*

*12-Dedim: İlahi! Sənə şükür edirəm! Buyurdu: "İnsanlardan eləsi də vardır ki, Allaha şəklə ibadət edər. Əgər ona bir xeyir toxunsa, (dini barəsində) arxayın olar (islamdan möhkəm yapışar). Yox, əgər ona bir bəla (müsibət) üz versə, çöhrəsi dəyişər (islamdan üz döndərib yenə küfrə qayıdar). Beləsi*

*dünyanı da əldən verər, axirəti də. Açıq-aşkar ziyan budur, bu!"*
*(Həcc surəsi 11)*



*13-Dedim: İlahi! Mən çox tənhayam! Buyurdu: "Mən yaxınam!"*
*(Bəqərə surəsi 186)*

*14-Dedim: İlahi! Sən həmişə mənə yaxınsan, amma mən çox uzağam. Ey kaş budan çox Sənə yaxın ola biləydim! Bururdu: "Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və qafillərdən olma!" (Əraf surəsi 205)*

*15-Dedim: Bu da qüdrət və istedad istəyir. Buyurdu: "Məgər Allahın sizi (günahlarınızı) bağışlamağını istəmirsiniz? Allah (bəndələrini) bağışlayandır, rəhm edəndir!" (Nur surəsi 22)*

*16-Dedim: İlahi! Həqiqətən çox istəyirəm ki, məni bağışlayasan! Buyurdu: "Rəbbinizdən bağışlanmağınızı diləyin və Ona tövbə edin. Həqiqətən, Rəbbim (bəndələrinə) rəhm edəndir, (onları çox) sevəndir!" (Hud surəsi 90)*

*17-Dedim: İlahi! Bu qədər günahla nə edə bilərəm? Buyurdu: "Məgər onlar bilmirlər ki, Allah qullarından tövbə qəbul edər, sədəqə (zəkat) alar və Allah tövbələri qəbul edəndir, rəhmlidir?!" (Tövbə surəsi 104)*

*18-Dedim: Daha tövbə etməkdən xəcalət çəkirəm, çünki bundan əvvəl də çox tövbə etmişəm amma, yenə günaha tərəf qayıtmışam. Buyurdu: "(Hər şeyi) Bilən Allahdandır- ...Günahları bağışlayan, tövbələri qəbul edəndir...." (Ğafir surəsi, 2-3)*

*19-Dedim: O qədər günahımla hansında tövbə edim? Buyurdu: "Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!" (Zümər surəsi 53)*

*20-Dedim: İlahi! Əgər yenə qapına gəlsəm, məni yenə bağışlarsanmı? Buyurdu: "Axı günahları Allahdan başqa kim bağışlaya bilər?" (Ali İmran surəsi 135)*

*21-Dedim: İlahi! Bilmirəm nəyə görə, hər vaxt sizin bu buyurduğunuzu eşitdikdə xəcalət çəkib içimdən yanıram və tövbə edirəm? Buyurdu: "Allah (günahından) tövbə edənləri, (təmiz və) pak olanları sevər!" (Bəqərə surəsi 22)*

*22-Birdən dilimə gəldi: Ey mənim Allahım! Səndən başqa mənim kimim var? Buyurdu: "Məgər Allah Öz bəndəsinə kifayət deyilmi?!" (Zümər surəsi 36)*

*23-Dedim: İlahi! Sənin bu qədər mehribanlığının qarşısında mən nə də bilərəm? Buyurdu: "Ey iman gətirənlər! Allahı çox zikr edin! Onu səhər-axşam təqdis edib şəninə təriflər deyin! (Sübh, günorta, ikindi, axşam və gecə namazlarını qılın!) Sizi zülmətdən nura çıxartmaq üçün mələkləri ilə birlikdə sizə mərhəmət bəxş edən Odur. Allah möminlərə rəhm edəndir!" (Əhzab surəsi, 41, 42, 43)*

*Və çoxlu dedim, hər bir sualıma ruhumu rahatlayan cavablar aldım...*

*Hazırladı: Hacı Yusif Əliyev*



# RASİONALLIQ VƏ DİN
## (AĞIL VƏ İMAN MÜNASİBƏTLƏRİ)



***Görəsən, ağıl imana bağlıdır, yoxsa ağılsız da olması mümkündür, ümumiyyətlə hansı həddə rasional iman mümkündür? Filosof və teoloqların ən çox diqqət etdiyi məsələlərdən biri də ağıl və iman münasibətidir. Bu bəhs "ağıl və vəhy", "elm və din" və s. adlar altında tarix boyu müzakirə mövzusu olmuşdur.***

***Burada mövcud olan fikir ayrılığı bundan ibarətdir ki, dini müddəaların etibarlılığı üçün onları rasional əsaslandırmaq lazımdır, ya yox? Cavab olaraq üç versiya irəli sürülür: a) fideizm; b) ifrat rasionalizm; c) mötədil rasionalizm.***

1. Fideizm: bu görüş dini etiqadlar sistemini rasional dəyərləndirmə mövzusu hesab etmir. Fideist öz inancının təsdiqi üçün hər hansı dəlilə söykənmir. Ona görə imana dəlil axtarmaq ondan imtinaya bərabərdir. Əlbəttə, Quran təlimlərinə, Peyğəmbər (s) sünnəsinə, xüsusən təfəkkür və anlayışa çağırışa əsasən, İslam dinində fideizmə zəmin yaranmayıb. Xristianlığın müqəddəs mətnlərində isə inkarnasiya, üç üqnüm və s. kimi etiqadlar olduğu üçün fideizmə zəmin yaranmış, belə bir görüşün ortaya çıxmasına səbəb olmuşdur.

### Fideizmi növünə görə ifrat və mötədil təsnifata ayırmaq olar:

• İfrat fideizm: bu görüşün təmsilçisi Kiyerkeqordur. O, imanın rasionallaşdırılmasını qeyri-mümkün sayır; göstərici şahid və dəlillər insanı mömin edə bilməz. Çünki, ən qatı dəlil belə sındırıla bilir və dini iman əleyhinə daima yeni göstərici və dəlillərin olması ehtimalı vardır.

O, imanın üç spesifikliyi olduğuna inanır:

• iman iltizam və öhdəlik gərəktirir;

• iman çılğınlıqdır, tələbi isə canı təhlükəyə atmaqdır;

• iman bilik deyil, iradə və qərarvermə kateqoriyasına daxildir.

Kiyerkeqorun etiqadına görə, bu üç keyfiyyətdən heç biri imanın rasional olması ilə tutuşmur. Əksinə, imanın belə spesifiklikləri olması üçün o, paradoksal görünüşlü və ağlasığmaz olmalıdır.

### İfrat fideizmin problemləri:

1. Bu görüşün ilkin və ciddi problemi, ona əsasən din seçimində heç bir məntiq və əsas yoxdur. Ona görə ki, dinlər arasında hər növ qiymətləndirmə və seçim rasional qiymətləndirməni qəbul etmək deməkdir. Belə ki, dini götürqoy edərkən, artıq imanına xələl gəlir. Başqa sözlə, imandan imtina deməkdir.

2. Fideizm insanın həqiqətsevərlik ruhuna (ruhiyyəsinə) qarşıdır. Burada şəxs etiqadının həqiqətə zidd olduğunu bildiyi halda, ona könül verir, sanki həqiqət onu maraqlandırmır.

3. İmanın çılğın olması onun ağlasığmazlığını gərəktirmir. Çılğınlıq və qeyri-müəyyənliklə paradoksallıq arasındakı zərurət imanın tələbi (iman predmeti) deyil. Əksinə, ən çılğın iman həqiqətə bağlılıq əsasında meydana gəlir.

4. İmanın coşqun olması da, qeyri-rasional olmasını gərəktirmir. İman ən qəti dəlillərlə belə, meydana gəlməməsi mümkün olan nəfsi fəaliyyətdir. Sırf haqqı tanımaq, ona bağlılıq yaratmır, həm də insan iradəsi lazımdır.

• Mötədil fideizm: bu nəzəriyyənin banisi Vitqenşteyn deyir: İnsanın elmi və eksperimental aspektlərindən başqa, digər aspektləri də mövcuddur, hansı ki, hər birinin özünəməxsus qaydaları var. İman və dinin də özünə dair sferası var və bu sferanın elmi və rasional sfera ilə heç bir əlaqəsi yoxdur. Təbii ki, din və din dilinin ağlasığmaz (irrasional) olması ağıla zidd (anti-rasional) mənasında deyil, əksinə dini məsələlər sferasının rasional dəyərləndirmədən kənara çıxmasıdır. Biz dinlə münasibətdə yalnız seçim edə bilərik, amma onu elmi və fəlsəfi dəyərləndirmək mövzusuna çevirə bilmərik.

**Mötədil fideizmin problemləri:**

1. Din seçimində hər hansı bir meyarın olmaması;

2. Bu nəzərə əsasən, heç bir filosof dindarın sözünü anlamamalıdır, halbuki bu, belə deyil. Filosoflar arasında dini fəlsəfi təhlil edənlər, hətta inanclı filosoflar da vardır.

3. Əgər ayrı-ayrı dinlərin dili fərqlidirsə, ayrı-ayrı din nümayəndələri bir-birini anlamamalıdırlar, halbuki bu, belə deyil. Dinlərin eyni dili paylaşdığını desək, bəzi dinlərin bəzi fəlsəfələrlə dil yaxınlığı, başqa dinlərlə dil yaxınlığından daha çoxdur.

4. İnanclı biri din daxilində də ayrı-ayrı təriqət görüşləri ilə üz-üzədir. Birini digərindən üstün tutması üçün rasional dəyərləndirməyə möhtacdır.

5. İfrat rasionalizm: bu görüşə əsasən, yalnız o müddəa ağılabatandır ki, onun doğruluğu bütün zaman və məkanlarda, bütün aqillər üçün isbatını tapsın. Dini etiqadlar sistemini qəbulu da bu prinsiplə olmalıdır.

## İfrat rasionalizmin problemləri:

***1. Bu görüş öz-özünü danır. Çünki, yuxarıdakı müddəa bütün aqillər tərəfindən təsdiq edilməmişdir.***

***2. Bu gözləntiyə cavab verəcək hər hansı bir müddəa mövcud deyil, ən aksiom prinsiplər belə bəziləri tərəfindən inkar edilib.***

***3. Bu müddəanın tələbi, tarixin sonunadək gözləyib bütün insanların fikrini öyrənməkdir; hamısı müvafiq nəzər verdiyi təqdirdə onun doğruluğunu qəbul edə bilərik.***

***4. Mötədil rasionalizm: ifrat rasionalizmi və fideizmi kənarlaşdırdıqdan sonra növbə mötədil rasionalizmə çatır. Bu görüş sağlam və sıradan ağıla əsaslanır və ən önəmli nəzərləri bunlardır:***

***5. İdeya və nəzərləri araşdırarkən ehtiyatlı olmalı, yalnız sübutlara baxmaq lazımdır.***

***6. Ağlın məhdudiyyətləri var, bütün insanlar üçün hər bir etiqadın düzlüyünü isbat etmək iqtidarında deyil.***

***7. Bəzi müddəaların doğruluğunu bəzi sağlam ağıllı insanlar üçün isbat etmək mümkündür.***

***8. Doğruluq, reallıqla üst-üstə düşmə mənasındadır. Sağlam ağıla əsasən, bəşərin idrak mexanizminə etibar etmək olar və o, həqiqəti göstərməyə qadirdir. Bir mövzuda müvafiqlik, işəyararlılıq və yekdillik onun doğruluğuna etibarın artmasına səbəb olur.***

***9. Subyekt və obyekt arasında sərhəd təyin etmək olmaz. Göstərici şahid və dəlillərin çoxluğu müddəanın obyektivliyini artırır.***

***10. Qavranılan etiqadlar iki cürdür: fundamental və nəticə çıxarılan.***

***11. Nəticə almaqda deduktiv metodun etibarı qətidir. İnduktiv və nəqli metodların etibarı isə göstərilən şahidlərin sayına görə dəyişir.***

***12. Fundamental etiqadlar digər etiqadlardan nəticə alınmayıb. Onların qəbulu sırf subyektiv intuisiya əsasındadırsa, subyektiv, başqa aspektdən də təsdiq olunursa (aləmin reallıq olması kimi) obyektiv etibar daşıyır.***

***13. Mötədil (normal) düşüncənin meyarı üçdür: 1) öz dediyini dəyərə vermək və onun nəticəsinə iltizam; 2) xarici və daxili hiss üzvləri, intuisiya və s. kimi etibarlı yollarla etiqad əldə etmək; 3) qeyri-adi işin meydana çıxmaması.***



***14. Sağlam ağıl təkamül prosesini keçdikdən sonra, tədricən reallığa yaxınlaşır, keçmiş səhvlərini anlamaq, etibarını itirmir. Çünki, hər hansı bir səhvin kəşfi də sağlam ağıl nəticəsindədir.***

***15. Mötədil rasionallıq həmişə keçmiş inancların araşdırılmasına açıqdır, əsla yeni tədqiqatların aparılmamasına dair qəti hökm vermir.***

***16. Dini etiqadlarda sağlam ağıldan istifadə vacibdir. Ona görə ki, etiqadlar sistemi seçimində rasional dəyərləndirmədən başqa yol yoxdur.***

***17. İslam etiqadları sistemini rasional qiymətləndirmək mümkündür. Bu sistemin fundamental prinsipləri sağlam ağıl tərəfindən qəbul olunur. İslamın etiqad əsasları hər hansı ağıla zidd (anti-rasional), yaxud ağılasığmaz (irrasional) elementə sahib deyil.***

***Nəticə etibarı ilə, bunlardan həqiqətə uyğun və məqbulu mötədil rasionalizmdir.***

# İSLAMDA MUSİQİ, SEVİNMƏK VƏ ŞADLIQ ETMƏYƏ MÜNASİBƏT

*İnsan yer kürəsinin ən üstün və ən dəyərli varlığıdır. Müxtəlif din və şəriət, eləcə də əsas qanunlar və konstitusiyalarda möcvud olan çoxsaylı hökmlər və qayda-qanunlar da əslində insan dəyərləri və rifahına xidmət edir və etməlidir.*



Hər bir insanın həyatda sevinməsi və şadlıq etməsi onun dini, əqidəsi və irqindən asılı olmayaraq inkaredilməz hüququ sayılır. Bu da istər fərdi, istərsə də ümumi şəkildə musiqi ifa etmək, musiqi dinləmək və eləcə də musiqi müşayiəti ilə rəqs etmək məsələsini gündəmə gətirir. Sual olunur ki, İslam dininin musiqi ifa etmək, musiqi dinləmək və rəqs etmək barədə münasibəti nədir?

Azərbaycan xalqının əksəriyyətinin İslam dininə mənsub olduğunu nəzərə alaraq bu mövzunu İslam dini və xüsusilə də Quran baxımından araşdırmaq günümüzün aktual mövzularından birinə çevrilmişdir. Əslində İlahiyyat elmləri üzrə ali təhsil aldığım illərdə bununla bağlı ardıcıl mütaliə və araşdırmalar əsasında çoxsaylı qeydlər aparmış, bir neçə il öncə isə onların əsasında bu mövzu ilə bağlı "Musiqi barədə elmi araşdırma" adlı əsərimi tərtib etmişəm.

Bu yazıda ixtisara riayət edərək bu mövzu ilə bağlı müəyyən məqamları əziz oxucuların diqqətinə çatdırmaq istərdim:

**İslamda sevinmək, şadlıq etmək...**

İslam dini insanların təbii haqqı olan sevinmək və şadlanmağı yasaqlamamışdır. Bunun əksini fikirləşənlər əslində İslam dininin mahiyyətini düzgün şəkildə dərk etməyənlər, öz fərdi baxışları və dar düşüncələrini İslama zorla tətbiq etməyə cəhd edənlərdir. Görən, insan fərəhi və sevincinə səbəb olan musiqini insan həyatından necə ayırmaq olar? Görən, insanın daxili hislərinin təzahürü sayılan musiqini yasaqlamaq mümkündürmü? Görən, dinləyicidə insani dəyərlər, keçmiş xatirələr və həyat təravəti yaradan musiqini harama çevirmək olarmı? Görən, əksəriyyəti sevgi-məhəbbət, insani duyğular və dəyərləri özündə ehtiva etmiş, həm də incəsənətin əsas nümunələrindən sayılan musiqini yasaqlamaq və onu insan həyatından ayırmaq olarmı?

İslam dininin əsas bünövrəsi sayılan Qurani-Kərimdə oxuyuruq: "(Ya Peyğəmbər!) De: "Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz (halal) ruziləri kim haram buyurmuşdur?" De: "Bunlar dünya həyatında iman gətirənlər üçündür (lakin kafirlər də onlardan istifadə edə bilərlər), qiyamət günündə (axirətdə) isə yalnız möminlərə məxsusdur". Biz ayələrimizi anlayıb-bilən bir tayfaya belə ətraflı izah edirik." ("Əraf" surəsi, ayə: 32.)

Məlum ayədə sözügedən "zinət" ifadəsinin insan həyatının fərdi, ictimai və digər sahələrində çoxsaylı və müxtəlif nümunələri vardır. Rifah içində yaşamaq, dünya həyatının rahatlığı, sağlamlıq, təmizlik, mədəniyyət, səviyyə, gözəl və təmiz geyim, münasib mənzil və minik vasitəsi, insanın özü ilə uyğun olan səviyyəli həyat yoldaşı və s. o cümlədəndir. Şübhəsiz, dünya həyatında müəyyən çərçivə və şərtlər əsasında halal sayılan musiqilərin ifası, musiqinin dinlənməsi, insanların xüsusi çərçivədə musiqi sədaları altında rəqs etməsi və həyatdan zövq alıb fərəh hissi keçirməsi də məlum ayənin nümunələrindən sayıla bilər. Çünki burada sadalananların hamısı ayədə işlənmiş "zinət" ifadəsi çərçivəsində məqbul sayılır.

İslam dini heç də bəzilərinin güman etdiyi kimi bədbəxtlik və matəm dini deyil, əslində sözün həqiqi mənasında dirçəliş, təravət və nikbinlik dini olmalıdır. Onun rəmzi sayılan yaşıl rəng də əslində təravət, dirçəliş və yenilik anlamındadır. Bu din yalnız aşkar və gizlin sayılan günahlar və fəsadlarla müxalifdir. Dünya həyatında şadlıq və sevinc içində yaşamaq və həyatda fərəh hissi keçirmək heç də İslam dini tərəfindən qadağan edilməmişdir. Əslində hər bir halal və sağlam rifah və fərəh hissi hər bir insanın inkaredilməz haqqı sayılır. Buna görə də lütfən kimsə öz şəxsi baxışı və dünya həyatından küsmüş talehini İslam adı altında insanlara təqdim etməyə çalışmasın!

İslam təlimlərində haram və qadağan sayılan məsələ inanclı insanların rifahla dolu həyatı, sevinc və fərəh hissləri ilə yaşaması deyil, əslində günah, azğınlıq və fəsaddan ibarətdir. Bunu aşağıda təqdim edilən Quran ayəsindən çox asanlıqla əldə etmək mümkündür:

"(Ya Peyğəmbər!) De: "Rəbbim yalnız aşkar və gizli olan alçaq (pis) işləri, hər cür günahı, haqsız zülmü, Allahın haqqında heç bir dəlil nazil etmədiyi hər hansı bir şeyi Ona şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi haram buyurmuşdur."

("Əraf" surəsi, ayə: 33.)

İnanclı insanlar bu ayəni əsas tutaraq hər bir sahədə yalnız fəsad, azğınlıq və günahdan qorunmaq və beləliklə də öz dünya və axirət səadətlərini təmin etməyə çalışmalıdırlar. Nadanlıq və ya elmi qüsur nəticəsində Allah-taalanın halalını haram, Onun haram buyurduğunu isə halal kimi təqdim edən insanlar isə Allaha yalan qoşmuş və buna görə də böyük günaha aludə olmuşlar.

## İslamda musiqiyə münasibət...

İslam dininə görə musiqi ifa etmək, musiqi dinləmək və ya musiqi ifaları altında rəqs etmək zatən haram sayılmır. Əslində bu kimi işləri harama çevirən tam kənar amillər mövcuddur. İslam dininə görə musiqi halal və haram (günah) növlərinə bölünür. Ümumi şəkildə qeyd etmək lazımdır ki, musiqi İslam dini baxımından aşağıda qeyd edilən hallarda günah sayıla bilər:

1) Mənası günah, azğınlıq və batil olan musiqilər;

2) Ritmi, dinləyicilərdə ehtiras və qeyri-insani hislər doğuran musiqilər;

3) İstər kişi, istərsə də qadın müğənninin səsinin incəliyi və ya digər xüsusiyyətlərinə görə dinləyicidə ehtiras hissi oyatması;

4) Naməhrəm kişilər və qadınların iştirakı ilə onların rəqs etdiyi məclisdə ifa edilən musiqilər;

5) Haram içki içilən və günah edilən məclislərdə səslənən musiqilər;

6) İnsanı öz ilahi və insani vəzifələrindən yayındıran musiqilər.

Musiqinin öyrənilməsi, öyrədilməsi, musiqi alətlərinin hazırlanması, alışı və satışı və s. kimi işlər də yuxarıda sadalanmış şərtlər əsasında ölçülür.

Quranda açıq-aydın şəkildə musiqi adı çəkilməsə də, həmçinin musiqi açıq şəkildə yasaqlanmasa da, onun musiqi kimi təfsir və izah edilən müəyyən ifadələri əslində yuxarıda sadalanmış şərtləri özündə ehtiva edən musiqilər anlamındadır.

Musiqi barədə əldə olan hədislərə gəldikdə isə bu hədislərdən bir qismi musiqi ifa etmək və musiqi dinləməyə qəti şəkildə qadağa qoyur ki, bu da yuxarıda sadalanmış hallara aiddir. Lakin əldə olan digər hədislər açıq-aydın şəkildə musiqinin günaha yol verməmək şərti ilə halal olduğunu bəyan edir.

## Toy mərasimlərində iştirak etmək, rəqs etmək...

Son zamanlar müxtəlif toy mərasimlərində iştirak edib-etməməklə bağlı çoxsaylı suallara cavab olaraq qeyd etmək lazımdır ki, haram içki olmayan, eləcə də bir-birinə yad (naməhrəm) olan kişi və qadınların iştirakı olmadan həyata keçən toy mərasimlərində iştirak etməyin heç bir günahı yoxdur. Bu çərçivədə həyata keçən toy mərasimində rəqs etmək də rəqs edən şəxsi cəhənnəmlik etməz. Əslində bu, hər bir insanın psixoloji və təbii haqqıdır.

Müasir alimlərdən bir neçəsi də kişilərin kişi məclisində, qadınların isə qadın məclisində rəqs etməsinə icazə vermişlər. Buna misal olaraq əziz və dahi ustadım Əllamə Şeyx Məhəmməd Hadi Mərifət, bundan əlavə mərhum Şeyx Məhəmməd Fazil Lənkərani və Şeyx Məhəmməd İbrahim Cənnati kimi alimlərdən ad gətirmək olar. Doğrudan da əgər toy mərasimində spirtli içki yoxdursa, həmçinin bir-birinə yad olan kişi və qadınlar bir-birinin rəqs etməsinə tamaşa etmirsə, onların rəqs etməsi necə günah sayıla bilər?

Alimlər və fəqihlərin nəzərinə gəlincə, onların böyük əksəriyyəti musiqini haram sayıb, bir qismi isə musiqi mövzusuna ehtiyatla yanaşsalar da onlardan digər bir qismi uyğun mövzuda dərin elmi araşdırmalar aparmış və daha fərqli fikirlər ortaya qoymuşlar. Ümumi baxımdan Şeyx Tusi (385-460 h. q.), Molla Möhsün Feyz Kaşani (1007-1091 h. q.), Şeyx Əbül-Həsən Şərani, Mühəqqiq Məhəmməd Baqir Səbzvari (1090 h. q.), Şeyx Əhməd Mehdi Nəraqi, Seyid Macid Hüseyni Bəhrani, eləcə də Əllamə Seyyid Məhəmmədcavad Musəvi Ğərəvi, Əllamə Seyid Məhəmmədhüseyn Fəzlullah, Şeyx Cənnati və dahi ustadım Əllamə Mərifət kimi alimlərin musiqi barədə irəli sürdükləri fikirlər fərqli olmaqla yanaşı həm də bu sahədə daha dolğundur.

* Əlbəttə bu, heç də Azərbaycan kimi bir ölkədə din xadimi, axund və ya molla kimi ağır və həssas vəzifələri üzərinə götürmüş şəxslərin toy mərasimlərində rəqs etməsinə bəraət qazandırmaq anlamında deyil. Çünki bu zümrədən olan insanlar özlərini daha ciddi aparmağa mükəlləfdirlər. Məsələn, İslam dini baxımından kişinin dizə qədər şortik geyinib cəmiyyət arasına çıxması günah sayılmasa da, bir din xadimi və ya axundun belə vəziyyətdə cəmiyyət arasına çıxması əsla məqbul bir iş sayıla bilməz. Onların toy mərasimlərində rəqs etməsi də bu qəbildəndir.

* Eyni halda kimsə bu sahədə yanlışlığa yol veribsə "İslam əldən getdi!" - deyə onun şərəf və ləyaqətini alçaltmaq, barəsində video çarxlar hazırlayıb sosial şəbəkələrdə yaymaq və bayağı sözlərlə təhqir etmək heç bir mənada İslam əxlaqı və etikasına yaraşmır. İnsanlara haqq və hidayət yolunu göstərməyə iddialı olan din alimləri və ruhanilər baş verən yanlışlıqları imkan daxilində qapalı şəkildə həll etməyə, imkan daxilində insanları ən gözəl sözlər və tövsiyələr, xüsusilə də elm və aydın sübutlarla doğru yola dəvət etməlidirlər.

Bir-birinə yad olan kişi və qadınların toplandığı məkanda (toy mərasimi və s.) rəqs etməsinə gəlincə, düşünürəm ki, hər bir düşüncəli insan bununla bağlı mövcud olan qadağanın hansı anlam və hansı hədəflər üzərində söylənildiyini çox gözəl başa düşür. Çünki atədən bəylər və xanımlar toy mərasimlərində ən gözəl və təmiz geyimdə, eləcə də makiyaj və digər cazibədar formalarda hazır olurlar. Onların bu vəziyyətdə bir-birinin gözü qarşısında rəqs etməsi ilk növbədə cəmiyyətin paklığı, xüsusilə də ailə fundamentini sarsıda bilər.

Unutmayaq ki, hər bir insan cinsi, dini və irqindən asılı olmayaraq çox güclü müqayisə qüvvəsinə malikdir. Onun gözləri görür və gördükdən sonra dərhal müqayisə etməyə başlayır... Bu baxımdan bəy və xanım toylarının ayrıca keçirilməsi, toy mərasimlərində bir-birinə yad olan insanların isə bir araya gəlib rəqs etməkdən çəkinməsi ən gözəl və məqbul variantdır. Əslində qədim zamanlarda keçirilən toy mərasimlərimiz elə bu qaydada idi. Lakin zaman ötdükcə adət-ənənələrimizi unutduq...

**İlqar İsmayılzadə**
(İlahiyyat elmləri doktoru)

# “CİHAD” TƏHRİFƏ MƏRUZ QALMIŞ QURAN İFADƏSİ

1. Maraqlıdır, Quran ədəbiyyatında “cihad” sözü bu gün zehinlərə yeridilən “döyüş/ hərbi əməliyyat” anlamında deyil. Quran döyüş anlamını ifadə etmək üçün “Qital” sözündən istifadə edir ki, bunun da Quranda xüsusi bir fəlsəfəsi, şərtləri var. Zənnimcə, Quranın qəbul etdiyi “Qital” anlayışı əqli baxımdan müdafiəolunan və tamamilə ictimai bir zərurətdir, belə ki, onun mahiyyətini hər bir insanın qəbul etdiyi məşhur əxlaqi “qızıl qayda” təşkil edir: “Başqaları ilə elə davran ki, onların da səninlə o cür davranmasını istəyirsən”. Quranın dili ilə desək, “Sizinlə vuruşanlarla (=qital edənlərlə) siz də Allah yolunda vuruşun (=qital edin), lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!“. “Cihad” sözü lüğətdə çətinliyi, məşəqqəti özündə ehtiva edən hansısa bir səy, cəhd, təlaş, fəaliyyət anlamını ifadə edir. Bu əsasla, insan hansısa bir işdə çaba, cəhd göstərirsə, demək, cihad edir. Cihad sözündə əsla “döyüş” anlamı yoxdur. Bu, sonrakı zamanlarda ona yüklənən hərbi-siyasi bir anlamdır. Elə buna görə də, Quranda harda “cihad” sözü və ondan törənən kəlmələr işlənirsə, heç birində açıq-aşkar bir əlamət belə yoxdur ki, onun “döyüş” anlamında olduğunu göstərsin. Ancaq, bunun əksinə olaraq, “Qital” sözü belə deyil. Həm sözün leksik anlamı (=döyüşmək), həm də içərisində işləndiyi kontekstlər açıq-aydın onun hərbi əməliyyat mənasını ifadə etdiyini göstərir. Başqa sözlə, Quranda “cihad” və “qital” sözlərinin işlədlilmə keyfiyyətinə baxdığımız zaman anlayırıq ki, “cihad” sözündə həmişə özünü və ya başqasını haqqa və ya batilə doğru istiqamətləndirməyə çalışmaq elementi vardır. Belə ki, bəzən, yaxşı adamlar kimisə haqqa doğru istiqamətləndirməyə çalışırlar, bəzən də pis adamlar kimlərisə batilə doğru yönləndirməyə cəhd edirlər. Həmçinin insan özünü də qeyd olunan iki tərəfdən birinə doğru öz azad istəyi ilə istiqamətləndirməyə çalışa bilər. Deməli, “cihad” sözü kiminsə həyatına son qoymaq anlamına gəlmir, əksinə, onu canlı olaraq saxlayıb müəyyən bir tərəfə doğru (haqq və ya batil) yönəltmək deməkdir. Bu mənada “cihad” dinc fəaliyyət hesab olunur. Lakin “qital” sözü isə belə deyil. Qital bu anlamda səni qətlə yetirmək istəyəni zərərləşdirmək anlamındadır.

2. İlk olaraq gəlin, nümunə olaraq, “qital” ilə bağlı olan aşağıdakı bir neçə ayəni nəzərdən keçirək:

a) “Döyüş (=qital) xoşunuza gəlmədiyi halda, sizə vacib edildi…” (Bəqərə: 216)

b) “Haram olan ayda döyüş (=qital) haqqında səndən soruşanlara söylə: “O ayda döyüş (=qital) böyük günahdır…” (Bəqərə: 217)

c) “…Onlara döyüş (=qital) vacib olduqda isə, içərilərindən bir qismi Allahdan qorxan kimi və ya daha artıq bir qorxu ilə insanlardan qorxuya düşərək: “Ey Rəbbimiz! Döyüşü (=qital) nə üçün bizə vacib etdin, nə olardı ki, bizi yaxın zamana qədər yubandıraydın!”(Nisa: 77)

Quranın heç bir ayəsində “Cihad sizə vacib edildi” deyimi yoxdur. Bu əsasla, Quranın harsında döyüşdən danışılırsa, orada “cihad” deyil, “qital” sözündən istifadə edilir. Bir sözlə, Quran ədəbiyyatı “döyüş” anlayışını ifadə etmək üçün yeni bir termin və ya anlayış ixtira etməyib. Əksinə, hər bir dildə “döyüş/ hərbi əməliyyat” anlayışı hansı sözlə ifadə edilirsə, Quranda da bu sözün qarşılığı ərəbcədə “qital” kimi keçir. Bu da tamamilə normaldır.

3. İndi isə gəlin, “cihad” və bu sözdən alınan kəlmələrin işləndiyi ayələrə nəzər salıb, yuxarıda qeyd etdiyim məna işığında onları oxumağa çalışaq:

a) Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Əgər (valideynlərin) bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr(=cihad etsələr), onlara itaət etmə…(Ənkəbut: 8) Loğman surəsində isə qeyd olunan ayədəki göstərişin davamı olaraq “dünyada onlarla gözəl keçin” əmri də qeyd olunur (Loğman: 15)

b) Bizim uğrumuzda çalışanları (=cihad edənləri) mütləq, öz yollarımıza hidayət edəcəyik. Şübhəsiz ki, Allah yaxşı əməllər edənlərlədir! (Ənkəbut: 69)

c) Hər kəs çalışsa (=cihad etdisə), ancaq özü üçün çalışar (=cihad edər). Allah aləmlərə əsla möhtac deyildir. (Ənkəbut:6 )

d) …Allah malları və canları ilə çalışanları (=cihad edənləri) əyləşənlərdən (çalışmayanlardan) dərəcə etibarilə üstün tutdu… (Nisa: 95)

e) (Ya Rəsulum!) Kafirlərə itaət etmə və onunla (Quranla və ya itaət etməməklə) onlara qarşı böyük bir cəhdlə (=cihadla) cəhd göstər (=cihad et)! (Var gücünlə vuruş!) (Furqan: 52)

f) … Malınız və canınızla Allah yolunda cəhd göstərin (=cihad edin)! Bilsəniz bu sizin üçün nə qədər xeyirlidir! (Tovbə: 41)

Yuxarıda qeyd olunan ayələrin heç birində “cihad” sözü hərbi əməliyyat anlamında deyil. Əksinə, dediyimiz kimi, özünü və ya başqasını haqq və ya batilə doğru istiqamətləndirməyə çalışmaqdır. 1-ci ayədə müşrik valideynlər cəhd göstərirlər ki, öz övladını batilə doğru- Allaha şərik qoşmağa istiqamətləndirsinlər. Ayə isə bildirir ki, insan batilə dorğu yönəlməməlidir. 2-ci ayədə həqiqətsevələr özlərini haqqa doğru istiqamətləndirməyə çalışırlar, yəni həqiqəti tapmaq üçün cəhd göstərirlər. Allah da belələrini, vədə verdiyi kimi, doğru yola hidayət edəcəkdir. 3-cü ayədə bildirilir ki, insan özünü istər haqqa doğru, istərsə də batilə doğru istiqamətləndirsin, hər iki halda bunu özü üçün etmiş olur. Yəni xeyri də, zərəri də başqasına yox, onun özünə qayıdacaqdır. Bu məntiq Quranın bir çox ayələrində keçir. Məsələn, zümər: 41; İsra: 15; Ənam: 104 və s. 4-cü ayədə isə vurğulanır ki, öz malları və canları ilə həqiqəti təbliğ etmək üçün cəhd göstərən möminlərlə bunu etməyən möminlərin Allah qatında dərəcələri fərqlidir, belə ki, birinci qrup ikinci qrupa baxanda yüksək dərəcədədir. 5-ci ayəyə

gəldikdə, adıkeçən ayə Məkkə ayəsi olduğundan və həmin ayə hicrətdən öncə nazil olduğundan məlum olur ki, hansısa bir hərbi əməliyyatdan söz gedə bilməz ayədə. Beləliklə, ayəni belə anlamaq olar: Ey peyğəmbər! Sən ilahi dünya görüşünə sahibsən, onların materialist dünyagörüşünə təslim olma və Quran məntiqindən çıxış edərək, onlara qarşı fikri mübarizə apar. Nəhayət, 6-cı ayədə isə qeyd olunur ki, möminlər öz malları və canları ilə həqiqəti başqalarına çatdırmaq, onları haqqa doğru istiqamətləndirmək üçün çalışmalı, cəhd göstərməlidirlər. Qeyd edim ki, can ilə cəhd göstərmək hərbi anlamda döyüşmək deyil, əksinə, həqiqəti dinc yolla yaymaq üçün canından keçməyi belə göz almaq deməkdir.

Emin İmanlı

# CÜBRAN XƏLİL - DİN NƏDİR?

Cübran Xəlil Cübran demək olar ki, dünyada tanınmış bir yazıçıdır. O, Livanda dünyaya gəlib. On iki yaşında olanda atası həbs edilir və maddi çətinliklərə görə anası övladları ilə birgə ABŞ-a köçməyə məcbur olur. Cübran elə orada təhsil alır, ədəbiyyat, incəsənət və s. elmlərlə tanış olur.

Sonralar o həm bir şair, yazıçı və rəssam kimi püxtələşir və hamının diqqətini cəlb edir.

Cübran Xəlil çox maraqlı həyat tərzi yaşamış bir yazıçıdır. Elə buna görə də İngiltərədə onun həyatı barədə tamaşa da səhnəyə qoyulub.

Daha çox yazıçı kimi şöhrət qazanan Cübran Xəlil bir çox bədii əsərlərin müəllifidir. Misal olaraq "Dəli", "Məktublar", "Göz yaşı və təbəssüm", "Sınmış qanadlar" əsərlərinin adını qeyd etmək olar. Ərəb və ingilis dilində yazılmış bu əsərlərin çoxu dünyanın iyir-mi dilinə tərcümə edilib.

Cübranın əsərləri arasında "Peyğəmbər" əsəri özünəməxsus yer tutur və daha məhşurdur. Bu əsər ilk dəfə 1923-cü ildə çap olub və ondan sonra hər il yenidən çap edilir və həm də dünyanın əlli dilinə tərcümə edilib.

"Peyğəmbər" əsərinin əsas obrazı əl-Mustafa adlı müdrik bir şəxsdir. O, on iki il bir adaya sürgün edildiyindən vətəninə qayıtmaq üçün onu gəlib aparacaq gəminin yolunu həsrətlə gözləməkdədir. Nəhayət bir gün gözlədiyi gəmi gəlib çatır və o, adadan getmək istəyir. Bu vaxt ada sakinləri onun ətrafına yığışıb müxtəlif məsələlər- yemək-içmək, iş, sevinc, kədər, ev, geyim, sevgi, ailə, övlad, səxavət, ədalət, günah və cəza, qanun, azadlıq, ağıl, düşüncə, ağrı, özünüdərk, təlim, dostluq, söz, vaxt, yaxşılıq və pislik, dua, ləzzət, gözəllik, din, ölüm və s. barədə onun fikrini öyrənməyə çalışırlar.

Məsələn, "nikah barədə nə deyə bilərsiniz, Ustad?- sualını belə cavablandırır:

-Siz birgə doğulmusunuz və əbədi olaraq birgə olacaqsınız.

Ölümün ağ qanadları günlərinizi pərişan etdikdə də birgə olacaqsınız.

Amma birgə olduqda fasilənizi qoruyun.

İmkan verin səma küləkləri aranızda rəqs etsin.

Bir-birinizi sevin, amma sevgidən sədd düzəltməyin.

İmkan verin sizin ruhunuzun sahilləri arasında sevgi dalğalı dənizə çevrilsin.

Bir-birinizin qədəhlərini doldurun, amma bir qədəhdə içməyin.

Çörəyinizdən bir-birinizə verin, amma bir çörəyi dişləməyin.

Bir-birinizlə oxuyun, rəqs edin, sevinin, lakin bir-birinizi tək qoyun.

Necə ki, tarın simləri ayrı olsalar da bir nəğməni ifa edirlər.

Ürəklərinizi bir-birinizə verin, amma saxlamaq üçün deyil.

Çünki, yalnız həyatın əlləri sizin ürəyinizi saxlaya bilər.

Bir-birinizin yanında olun, amma sıx olmayın.

Çünki məbədin sütunları bir-birindən uzaqda dayanıblar.

Və palıd, sidr ağacları bir-birilərinin kölgəsində öyünmürlər, - o, cavab verir.

Yaxud münəccimin "Zaman nədir?" sualını belə cavablandırır:

-Siz istəyirsiniz ki, əndazəsiz, əndazəyə sığışmayan zamanı məhdudlaşdırasınız.

İstəyirsiniz ki, rəftarınızı, hətta ruhunuzu belə saatların, fəsillərin üzərində hərəkət etdirəsiniz.

Zamandan çay düzəldir, sonra kanarında oturub axmasına tamaşa edirsiniz.

Amma sizin vücudunuzda zamansız olan qüvvə həyatın zamansız olmasından xəbərdardır.



Bilirsiniz ki, dünən bu günün xatirəsidir, sabah isə bu günün röyası.

Sizin içərinizdəki oxuyan, düşünən ruh hələ də səmada ulduzları səpələyən ilk anın çevrəsindədir.

Sizin aranızda elə bir şəxs vardırmı ki, sevmək qüvvəsinin nəhayətsiz olmasını hiss etməsin?...

"Yaxşılıq və pislik nədir?" sualının cavabında isə deyir:

- Sizdə olan yaxşı cəhətlər barədə danışa bilərəm, pisliklər barədə yox.

Çünki, sizcə pislik nədir? Aclıq və susuzluğundan əziyyət çəkən yaxşılıq deyilmi?.. Beləcə o, bütün sualları müdrikcəsinə cavablandırmağa çalışır.

Bu sual-cavablar arasında ən maraqlı məqam Mustafanın qoca ruhaninin sualına verdiyi cavabdır.

Belə ki, "Bizə dindən danışın", - deyən qoca ruhaniyə belə cavab verir:

- Mən bu gün dindən başqa bir şey barədə danışdımmı?

Həqiqətən də belədir. Din məhz müəyyən ayinləri yerinə yetirməkdən ibarət deyil, əslində o, bizim həyat tərzimizdir, bizi tamamilə əhatə edir.

**Niyam Aqil**

# MÜSƏLMANLARIN ELM TARİXİ VƏ REALLIQLAR

***İslam dini elmə layiqincə dəyər vermiş, hamını oxumağa, öyrənməyə, düşünməyə səsləmişdir. İslamın erkən çağında məhz Quran təlimləri və İslam peyğəmbərinin tövsiyələri sayəsində müsəlmanlarda elmə böyük həvəs yarandı. Bəs müsəlmanlar bu fürsətdən necə istifadə etdilər, elmdə hansı irəliləyişlərə nail oldular və bu gün elmi baxımdan hansı durumdadırlar? Yazıda bu suallara cavab verməyə çalışacağıq.***



### Orta əsrlər Avropası və müsəlmanların elmi nailiyyətləri

Qərbin qaranlıq və cəhalət dövrü saydığı Orta əsrlər İslam dünyasında elm və sivilizasiyanın parlaq çağıdır. Kilsənin hakim olduğu Avropanın fanatizmdən, cəhalətdən, inkvizisiyadan əziyyət çəkdiyi dövrdə İslam şərqində qeyri-islam bilgiləri üzrə Xarəzmi, İbn Sina, Biruni, İbn Rüşd, Razi, Xəyyam, Xacə Nəsirəddin Tusi kimi alimlər yetişib dünya elminə böyük töhfələr verdilər.

Bu alimlərin hər biri haqqında xüsusi kitablar yazılmış, elm tarixinə dair qələmə alınmış əsərlərdə geniş məlumatlar verilmiş, əsər və bioqrafiyaları Avropa və Amerika universitetlərində tədris olunmuşdur. Bəzi qərəzli Qərb tarixçiləri bu dövrü görməzliyə vursalar və Orta əsrləri bütün dünya üçün qaranlıq dövr kimi səciyyələndirsələr də, şübhə yoxdur ki, müsəlman aləmi antik dövr elmini renessansa birləşdirən körpü rolunu oynamış, qədim irsləri qoruyub zənginləşdirmiş və səxavətlə dünyanın hər tərəfinə - Hindistana, Afrikaya, Avropaya ötürmüşdür.

Erkən İslam çağında məscidlər həm də tədris mərkəzi kimi fəaliyyət göstərirdi. Lakin sonralar elmə tələbatın artdığına, tədrisin ibadətə mane olduğuna və firqə maraqlarından irəli gələrək bəzən şagirdlər arasında münaqişələrin yarandığına görə məscidlərin nəzdində xüsusi mədrəsələr tikildi. Bu mədrəsələr özfəaliyyət layihəsi olub din alimləri və ruhanilər tərəfindən idarə olunurdu. Bir qədər sonra isə dövlət tərəfindən rəsmi elm mərkəzləri və təhsil ocaqları açıldı. Doqquzuncu əsrin birinci yarısında Bağdadda təsis olunan "Beyt əl-hikmət" elmi-tədqiqat mərkəzi, həmin əsrin ikinci yarısında Qahirədə tikilən əl-Əzhər və on birinci əsrdə müxtəlif şəhərlərdə inşa olunan Nizamiyyə mədrəsələri İslamın ilk yüzilliklərində fəaliyyət göstərən yüksək səviyyəli təhsil ocaqları sayılırlar. Bundan əlavə, dünyanın hər tərəfindən gətirilmiş yüz minlərlə, bəzən milyondan artıq kitabı olan kitabxanalar, çoxlu kitab mağazaları, bəzi şahların səfərləri zamanı onları müşayiət edən səyyar mədrəsə və klinikalar da olmuşdur.

Bütün bunlar Avropanın cəhalət dövrünə aiddir. O zaman Avropada sözügedən elm ocaqları ilə rəqabətə girəcək bir mərkəz də yox idi. Xaç yürüşləri zamanı Avropada tibb elmi o qədər zəif idi ki, insanlar ən elementar xəstəliklərə görə həyatla vidalaşmalı olurdular, soyuqlamış adamın bədəninə cin girdiyini düşünür və onu çıxarmaqdan ötrü xəstəni möhkəmcə döyürdülər. Halbuki tanınmış Amerika tarixçisi Vil Dürantın da yazdığına görə, hələ ondan öncə - 931-ci ildə təkcə Bağdadda 860 rəsmi həkim çalışırdı. O dövrdə ən məşhur təbib olan Məhəmməd ibn Zəkəriyya Razinin bir kitabı 1498-1866-cı illər arasında qırx dəfə ingilis dilində çap edilmişdi. (1) İbn Sinanın bir qədər sonra tibbə dair yazdığı Qanun kitabı isə on ikinci əsrdə latın dilinə çevrilib on yeddinci əsrin ortalarına qədər Avropanın tibb universitetlərində tədris olunmuşdu. (2)

### Elmi gerilik və Avropa renessansı

Biz bütün müsəlman alimlərini şedevr təqdim etmək fikrindən uzağıq. Onların arasında kitablarını cəfəngiyat və xurafatla dolduranlar da az deyil. Lakin doğrusu-yanlışıyla bunların hamısı İslamın elmə və alimə verdiyi dəyərin nəticəsidir. İnkar etmək olmaz ki, İslamın gəlişindən sonra tədricən bütün Orta Şərqdə elmi intibah və İslam renessansı yarandı. Digər ilahi dinlər, o cümlədən yəhudilik və məsihilik daha tez təhrifə məruz qaldığı üçün dünya elminə xüsusi töhfə verə bilmədilər. İslamda isə bu proses bir qədər gecikdiyinə görə elmin inkişafında güclü stimul rolunu oynadı. Burada söhbət müqəddəs kitabların və dini mətnlərin deyil, dinin ruhunun, məğzinin, əsl mahiyyətinin, ictimai proseslərdə aparıcı rolunun təhrifindən gedir.

İslam dünyasının elmi inkişafı önündə sədd çəkən amillərdən biri də dini dözümsüzlük idi. Bu dində elmi fikir ayrılığına, plüralizmə normal yanaşılsa da, bəzən hətta ən xırda məsələlərdə böyük münaqişələr yaranmış, görkəmli alimlər kafir elan olunmuşlar. Bu isə firqə, məzhəb və elmi məktəblər arasındakı fərqlərdən irəli gəlmişdir. Rəqibi sıradan çıxarmağa, məhv etməyə çalışan şiə-sünni, əşəri-mötəzili, əxbari-üsuli, hədisçi-mütəkəllim, sufi-filosof

qarşıdurmaları və digər belə konfliktlər sonucda elmi baxımdan deyil, fiziki və siyasi baxımdan məğlub alimlərin təcrid olunmasına, əsərlərinin "kutub zallə" – azdırıcı kitablar elan edilməsinə və elmi inkişafın zəifləməsinə gətirib çıxardı. Bunlardan əlavə, müxtəlif siyasi və iqtisadi amillər, daxili müharibələr də müsəlman aləmində elmin tənəzzülünə səbəb oldu.

Əsasən Səlib müharibələrində (1096-1270) İslam dünyası və onun elmi əsərləri, həmçinin antik Yunan, Hind, İran və Çin alimlərinin ərəbcəyə çevrilmiş kitabları ilə tanış olan Avropa alimləri elə o zamandan ciddi elmi araşdırmalara başladılar. Klerikal hakimiyyət güclü elmi yeniliklər önündə tab gətirməyib devrildi, mürtəce qanunlar əvəzləndi. Sonralar isə müstəmləkə amili meydana çıxdı, Avropa zəif, ancaq sərvətli bölgələrin istismarından əldə etdiyi gəliri elmin daha da gücləndirilməsinə sərf etdi, sənaye inqilabları baş verdi. Bu ərəfədə qeyri-islam bilgiləri üzrə dahi astronom, riyaziyyatçı və memar Şeyx Bəhai (1547-1621) kimi alimlər yetişsə də, ümumilikdə İslam dünyası elmi, dini, siyasi və geosiyasi baxımdan acınacaqlı durumda idi, bir qədər sonra isə demək olar ki, istisnasız olaraq müstəmləkəyə çevrilmişdi.

### Ən güclü silah və müsəlmanların yeganə çıxış yolu

İmam Əli belə buyurur: "Elm öyrənin! Elm düşmənlər əleyhinə silahdır!" Ardınca deyir ki, elmə yiyələnmiş tayfa və millətlər digərlərinə örnək olar, əməllərinə göz dikər, əsər və məhsullarından istifadə edərlər. (3)

Bu gün elmin ən güclü silah olması heç kimdə şübhə doğurmur. Elm həm güclü iqtisadiyyat deməkdir, həm pul, rifah, tərəqqi, həm misilsiz təbliğat imkanları, həm də odlu silah və müasir texnika. İmam Əliyə aid edilən başqa bir hədisdə məhz belə də deyilir: "Elm şahlıqdır. Elmi olan onunla hökmranlıq edər, olmayana isə digərləri hökmranlıq edərlər!" (4)

Bu gün Orta əsrlərdəki İslam iqtidarını bərpa etmək üçün elm və düşüncə istehsalı hava-su kimi zəruridir. Müsəlmanlar həm müasir metodlarla İslamı yenidən yazmalı, bütün sahələrdə mütərəqqi dini təfəkkürü ortaya qoymalı, həm də qeyri-islam bilgilərində özlərini ön sıralara çatdırmalı və yeni İslam sivilizasiyası yaratmalıdırlar.

Qeydlər


1. Dürant V. Sivilizasiyalar tarixi, 4/1934.
2. Yenə orada, 1936.
3. Səduq. Əl-Əmali, 713.
4. İbn Əbilhədid. "Şərh Nəhcül-bəlağə", 20/319.


**Vüsal Hüseynzadə**

# DƏMİRÇİNİN NƏSİHƏTİ

## Səni bu qədər xəstəlik və bəlalara düçar edən Allahı necə sevirsən?

Bir dəmirçi çoxlu bəla və xəstəliklərə düçar olmasına baxmayaraq Allaha çox bağlı idi. Günlərin birində Allaha inamı olmayan yoldaşlarından biri ondan soruşdu:



- Səni bu qədər xəstəlik və bəlalara düçar edən Allahı necə sevirsən?

Dəmirçi başını aşağı salıb bir qədər sükut etdikdən sonra dedi: - Mən dəmir bir alət düzəltmək istədikdə əvvəl bir parça dəmiri kürəyə qoyuram. Sonra onu istədiyim şəkilə salmaq üçün zindana qoyub döyürəm. Əgər ürəyim istəyən şəkilə düşsə, bilirəm ki, o faydalı bir alət olacaq. İstədiyim formaya düşmədikdə isə onu kənara qoyuram.

Bu mövzu səbəb olmuşdur, mən həmişə Allah dərgahına dua edim ki, İlahi, məni bəla kürəsinə qoy, amma kənara qoyma.

Hazırladı: Seyid Zahir

# DİNİN XARİCİ VƏ DAXİLİ HİSSƏLƏRİ



1. Məlum olduğu kimi, din (məsələn, İslam dini) mürəkkəb bir nəsnədir, yəni hissələrdən ibarətdir və bəsit deyil. Yenə məlumdur ki, bu hissələr eyni dərəcədə deyil. Belə ki, bəzi hissələr birinci dərəcəli, necə deyərlər, "altqurum", bəziləri isə ikinci dərəcəli, yəni "üstqurum" hesab olunur. Başqa sözlə, birinci dərəcəli hissələri "xarici hissələr", ikinci dərəcəli hissələri isə "daxili hissələr" adlandırmaq olar.

2. Gəlin, görək dinin "xarici hissə"si dedikdə, nə nəzərdə tutulur? Əgər dinin hissələrini əqli baxımdan analiz eləsək, bu faktın şahidi olarıq ki, bəzi hissələr dinin mahiyyətini təşkil edir, belə ki, əgər həmin hissələr olmasa, ümumiyyətlə, "din" adlı bir nəsnə var ola bilməz. Bu hissələr, mənə görə, Allah, peyğəmbər və axirət anlayışlarıdır. Məsələn, əgər Allah var olmasa, "din" adlı nəsnə həyata keçə bilərmi? Xeyr, keçə bilməz, ona görə ki, dini Allah göndərir insanlara. Bu mənada, Allah var olmasa, dindən söhbət belə gedə bilməz. Deməli, "Allah" dinin xarici hissəsi hesab olunur. Peyğəmbər də belədir, yəni əgər Allah var olsa, amma öz dinini insanlara çatdıracaq bir elçi göndərməsə, bu zaman yenə də dindən danışmaq mənasız olardı. Axirət anlayışına gəlincə, bu da dinin xarici hissəsi kimi çıxış edir. Başqa sözlə, axirətsiz din anlayışı mənasızdır, çünki bu zaman "itaət" anlayışı öz mənasını itirir, ona görə ki, ortada cəza-mükafat sistemi yoxdur. Bu sistemi təmin edən element isə təkcə axirətdir. Deməli, axirətsiz din mümkün deyil.

Bura qədər deyilənlərdən aydın oldu ki, dinin xarici hissəsini, başqa sözlə, onun mahiyyətini "Allah-peyğəmbər-axirət" üçlüyü formalaşdırır. Bu üçlüyün əvvəli Allah, ortası peyğəmbər, axırı isə axirətdir. Bu əsasla, Allah öz mesajlarını peyğəmbərinə ötürür, o da öz növbəsində bunları insalara çatdırır, insanlar isə həmin mesajlara itaət edib-etməmələri baxımından axirətdə mükafat və ya cəzaya nail olurlar. Deməli, bu üç fundamental anlayış əl-ələ verərək "din" adlı nəsnəni ortaya çıxarır.

3. Öncə qeyd etdiyimiz kimi, dinin daxili hissələri də var. Daxili hissələr xarici hissələrə baxanda, dinin mahiyyətini təşkil eləmir, yəni onlardan hər hansı biri azalarsa, "din" aradan getmir. Bu mənada, dinin həcmi Allah tərəfindən azaldıla da, çoxaldıla da bilərdi.

4. Yuxarıda qeyd etdiyimiz əqli bölgüyə əsasən, bir neçə nəticə əldə olunur:

A) Adıkeçən bölgünün məntiqi nəticəsi olaraq məlum olur ki, dində "qırmızı xətt" sadəcə olaraq Allahın, peyğəmbərin və axirətin varlığıdır. Bunlardan hər birinin keyfiyyətinə gəlincə, bu, qırmızı xəttə daxil deyil, yəni teoloji ictihada açıqdır. Burada fərqli görüşlər meydana çıxa bilər. Necə ki İslam düşüncə tarixində bu barədə olan fərqli yanaşmaların şahidiyik.

B) Yuxarıdakı nəticədən yenə məlum olur ki, dinin bütün daxili hissələri ictihada açıqdır. Yəni daxili hissələrin varlıq və keyfiyyətində fikir ayrılığı ola bilər. Necə ki bu, İslam düşüncə tarixində bunu müşahidə edirik.

C) Ənənəvi teoloji baxışda "üsuliddin" və "füruiddin" olaraq keçən anlayışlar, əslində, dinin xarici və daxili hissələrini əks etdirir. Zənnimcə, "üsuliddin" və "füruiddin" anlayışlarının ancaq bu mənada təfsir edilməsi, açıqlanması məntiqli və müdafiə oluna bilən nəzərə çarpır.

D) Əhli-şiə düşüncəsində qəbul edilən "İmamət" təlimi yuxarıdakı bölgüyə görə dinin xarici hissəsi kimi yox, daxili hissəsi kimi çıxış edir.

E) Bir insanın İslama mənsub olduğunu təsdiqləyən iki şərt var: 1) lazım şərt, yəni dinin xarici hissələrini- Allahın, hz. Məhəmmədin (s) və axirət aləminin varlığını qəbul etmək, 2) kafi şərt, yəni dinin daxili hissələrini "varlıq" və "keyfiyyət" baxımından məlum olduğu təqdirdə qəbul etmək. Yəni məsələn, əgər "x" adlı daxili hissənin varlığı müəyyən bir keyfyyətlə insan üçün məlum olarsa, bu zaman onu qəbul etməlidir. Bu əsasla, kimsə müəyyən ictihad fonunda hər hansı bir hissənin varlığının dində olmadığı qənaətinə gələ bilər və ya hər hansı bir hissənin varlığını qəbul edib, onu başqa bir keyfiyyətdə təfsir edə bilər. Qeyd etdiyimiz kimi, xarici hissələrin keyfiyyətində və daxili hissələrin həm varlığında, həm də keyfiyyətində fikir ayrılığı ola bilər. Başqa sözlə, onlar ictihada açıqdırlar.

Y) Başqa önəmli bir nəticə isə belədir ki, kimsə dinin xarici hissələrindən birini bilərəkdən inkar edərsə, bu zaman dindən çıxmış hesab olunur, yəni artıq, həmin kəs bu dinə mənsub deyil. Daxili hissələrə gəlincə, təkcə o zaman onlardan hər hansı birinin qəsdən inkarı insanı dindən çıxara bilər ki, həmin daxili hissənin varlıq və keyfiyyəti həmin insan üçün məlum olduqdan sonra onu bilərəkdən inkar etməsi xarici hissələrdən birinin bilərəkdən inkar edilməsi ilə nəticələnsin. Bu da o deməkdir ki, dinin daxili hissəsi xarici hissəsi ilə sıx əlaqəlidir, bu mənada ki, qeyd olunan vəziyyətdə daxili hissənin qəsdən inkarı xarici hissənin qəsdən inkarına gətirib çıxardır.

Q) Son olaraq qeyd etmək lazımdır ki, daxili hissələrinin hər birinin dinə mənsubiyyət baxımından statusları bərabərdir. Yəni, məsələn, "x" adlı hissə (varlıq və keyfiyyət baxımından məlum olduğu təqdirdə) nə qədər dinə mənsubdursa-dini yük daşıyırsa, "y" adlı hissə də dinə bir o qədər mənsubdur- dini yük daşıyır.

**Emin İmanlı**

# QURBAN BAYRAMI

***Mərhəmətli, rəhimli Allahın adı ilə! "Bayram" dedikdə hər bir insan sevinir. Bütün normal insanlar bayramı səbirsizliklə gözləyir. Çünki, insan üçün keçmiş bayramlar xoş təəssüratlarlar və şirin xatirələrlə yadda qalır, gələcək bayramlarda isə xoş dəqiqələrə qovuşacağına ümid bəsləyir. Kim bilir, insan, həyatı boyu nə qədər arzuolunmaz hadisələrlə üzləşir və ya onun iştirakçısına çevrilir. Bu isə onun ruhuna ağır zərbələr endirir. Məhz bayramda insan mənəvi və psixoloji durumunu gərginlikdən azad etməyə macal tapır.***



Əslində ibadətlə məşğul olan insanlar ibadətini bitirdikdən sonra o sevinci duyur və batinən mənəvi aramlıq əldə edirlər. Müqəddəs İslam dini digər sahələrdə olduğu kimi, bu məsələyə də etinasız deyil. İslam dini elə bir günü bayram hesab edir ki, o gün, insan ibadətini başa vursun. Bir ay oruc tutduqdan sonra "Fitr" bayramı olur. Həcc mövsümündə, həcc ziyarətinin bütün əməllərini, ibadət məqsədi ilə yerinə yetirdikdən sonra "Qurban" bayramı olur. Deməli, İslam dinində, ibadət olmadan heç bir gün rəsmi bayram sayılmır. Bütün bunlardan aydın olur ki, əslində bayram deyil, ibadət insanda pozitivlik yaradır və insan mənəvi və psixoloji aramlıq tapır.

Qurani-Kərim: "O kəslər ki, Allaha iman gətirmiş və qəlbləri Allahı zikr etməklə aram tapmışdır. Bilin ki, qəlblər (möminlərin ürəkləri) yalnız Allahı zikr etməklə aram tapar!"(1)

"Qurban", "Fitr" və "Qədir-Xum" bayramı islamın ən dəyərli bayramlarından hesab olunur. Amma burada nəzərə çarpacaq bir məqam da var. O da bundan ibarətdir ki, Qurban bayramı həcc bayramı deyil, Qurban bayramıdır. "Qurban" sözü Allah taalanın razılığını əldə etmək üçün və Ona yaxın olmaq üçün yerinə yetirilən ibadətlər mənasındadır. Eləcə də Fitr bayramı orucluq bayramı deyil, Fitr bayramıdır. Bir ay oruc tutaraq ibadət etdikdən sonra fitr bayramı olur. Bu iki bayramın müştərək xüsusiyyətləri vardır. O da xalqa xidmət etmək, ehtiyaclı insanlara əl tutmaq, ac insanları doyurmaq, və sair ictimai işlərdir.

Bu xeyirxah əməllər isə hər iki bayramda reallaşır. Qurban bayramında qurban kəsiliib, onun əti ehtiyaclı şəxslərə paylanır. Fitr bayramında isə Fitrə-zəkatı xalq arasında yardıma ehtiyaclı şəxslərə verilir.

Din əsasən iki sualı öyrənib araşdırma aparmaq və tədqiqat etmək mənasındadır: Tövhid nədir? Müvəhhid (təkAllahlı) kimdir? Hər iki sualın cavabını "Qədir-Xum"-da tapmaq olar. Tövhidi bilmək və təkAllahlı olmaq isə ibadətlərin ən üstünüdür.

"Bayram" ilə "ibadətin" sıx əlaqəli olmasını digər aspektdən də isbatlamaq mümkündür. Belə ki, "Allaha üsyan-günah edilməyən hər gün bayram sayılır"(2)

Günah olunmayan hər gün bayram sayılırsa ibadət edilən günlərin bayram hesab olunmasında şək-şübhə etməməliyik.

Beləliklə, aydın oldu ki, hər üç bayramın özünəməxsus ibadətləri var. Məhz bu üzdən, yəni ibadətləri olduğuna görə bayram sayılır.

Namaz dinin sütunudur. Həmçinin "xalqın rifahı üçün çalışmaq" da dinin sütunudur. Üstəlik namazdan da çox təkidlə (israrla) tapşırılıb. Həzrət Əli (ə) çox dəyərli Nəhcül-bəlağə kitabında Malik Əştərə, həmçinin Misir xalqına ünvanladığı məktubda bu məsələni xüsusi olaraq israrla vurğulamışdır:

"...Dinin sütunu, müsəlmanların kütləvi birliyi və düşmənlər müqabilində (onların hücumlarının qarşısını almağa) hazır olan xalqın ümumi hissəsidir. Buna görə də gərək onlarla birgə olasan və meyl və rəğbətin onlarla olsun..." (3)

Xalqa xidmətetmə, xalqın rifahını, təhlükəsizliyini təmin etmək və ehtiyaclarını ödəmək dini ədəbiyyatda da öz əksini tapmışdır. Hədislərdə xalq üçün çalışan insanlara çox böyük savab vəd edilmişdir. Məsumlardan bu barədə nurlu sözlər çoxdur. Burada o hədislərin məzmununa işarə edirik:

Mömin qardaşın ehtiyaclarını təmin etmək, doqquz min il oruc və ibadətə (4), on dəfə kəbəni "təvaf" etməyə (5), min həccə (6), kəbədə tutulan iki ay oruc və "etikaf" ibadətinə (7), iyirmi həcc və yüz min nəfər insana ehsan etməyə (8) bərabərdir.


Qeydlər:
1-"Rəd" surəsi, 28-ci ayə.
2- "Vəsailuş-şiə", c 10, səh: 398.
3- "Nəhcul-bəlağə", 53-cü məktub.
4- "Fəqih", c 2, səh:190.
5- "Kafi", c 2, səh: 194.
6- "Əmali", səh: 238.
7- "Kafi", c 2, səh: 198.
8- "Kafi", c 2, səh: 193.


**Şəhriyar Əliyev**